RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 123 (9578) 12 iyun 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Güzəşt olmayacaq

## İlham Əliyevin sülh gündəliyi bölgənin inkişafının və təhlükəsizliyinin yeganə təminatçısıdır

Son aylarda baş verən proseslər, xüsusən sərhədlərin delimitasiyası və demarkasiyasının başlanması sülh üçün mühüm perspektivlər formalaşdırır. Ötən həftə Qahirədə Misir Prezidenti Əbdülfəttah əs-Sisi ilə birgə mətbuata bəyanatlarla çıxışı zamanı Prezident İlham Əliyev diqqətə çatdırdı ki, hazırda Azərbaycan və Ermənistanın dövlət sərhədlərini müəyyənləşdirmək işində müəyyən uğurlara nail olunub.

Həmçinin iki ölkə arasında artıq 12,7 kilometr dövlət sərhədinin razılaşdırılmasını, Qazax rayonunun dörd kəndinin danışıqlar yolu ilə Azərbaycana geri qaytarılmasını müsbət hal kimi qiymətləndirdiyini deyən dövlətimizin başçısı bildirib ki, danışıqlar prosesində də irəliləyiş üçün yaxşı imkanlar var. Hər halda Azərbaycan buna hazırdır.

Həmçinin bazar ertəsi Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü zamanı Prezident İlham Əliyev regional məsələlərlə bağlı fikir mübadiləsi aparıb. Bütün bunlar həm də onu göstərir ki, Azərbaycan Prezidentinin sülh gündəliyi bölgənin inkişafının və təhlükəsizliyinin yeganə təminatçısıdır.

Azərbaycanın yürütdüyü qətiyyətli siyasət bölgədə qarşılıqlı etimad quruculuğunun, normallaşmanın, davamlı sülhün əldə edilməsi üçün şərait yaradıb. Azərbaycan ilə Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiya işlərinə start verilməsi sülh prosesinin uğurlu başlanğıcı kimi böyük əhəmiyyət daşıyır.

Bir başqa reallıq isə ondan ibarətdir ki, sülh müqaviləsinin imzalanması ilə Ermənistan, nəhayət ki, onilliklərdən sonra beynəlxalq hüquqla müəyyənləşmiş sərhədləri çərçivəsində rahat və təhlükəsiz şəraitdə yaşamağa başlaya bilər. Amma hazırda Ermənistanın həm iqtidarında, həm də müxalifətində müşahidə olunan revanşist əhvali-ruhiyyənin fonunda İrəvanın sülh müqaviləsini imzalamaqdan yayındığını aydın görürük. Bakının xəbərdarlıqlarına baxmayaraq, absurd bəhanələrə sığınaraq konstitusiyasında dəyişiklik etmək istəməməsi isə Ermənistanın sülh müqaviləsi bağlansa belə Azərbaycana qarşı ərazi iddiasından əl çəkmək istəmədiyini göstərir.

→ 4



## Azərbaycan-Rusiya münasibətləri yeni məzmun və birgə layihələrlə zənginləşəcək

**Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə**

Hörmətli Vladimir Vladimiroviç.

Sizi və Sizin şəxsinizdə Rusiyanın bütün dost xalqını dövlət bayramı - Rusiya Günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Xalqlarımız arasında uzun əsrlər ərzində formalaşmış möhkəm dostluq və mehriban qonşuluq ənənələri Azərbaycan ilə Rusiyanın münasibətlərinin uğurlu və ardıcıl inkişafının etibarlı əsasıdır. Biz strateji müttəfiqlik xarakteri daşıyan Azərbaycan-Rusiya qarşılıqlı fəaliyyətinin əldə olunmuş səviyyəsini yüksək qiymətləndiririk.

Bu gün bizim ikitərəfli gündəliyimizdə əməkdaşlığın, demək olar ki, bütün sahələrini əhatə edən və şübhəsiz, həyata keçirilməsinin təkcə ölkələrimizə və xalqlarımıza deyil, həm də bütövlükdə regionun rifahına xidmət edən məsələlərin geniş spektri yer alır.

Əminəm ki, Azərbaycan-Rusiya münasibətləri və dost ölkələrimizin maraqlarına cavab verən çoxplanlı qarşılıqlı fəaliyyət gələcəkdə də yüksələn xətlə səmərəli şəkildə inkişaf edəcək, yeni məzmun və birgə layihələrlə zənginləşəcək.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, Rusiyanın bütün vətəndaşlarına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2024-cü il*

## Faydalı əməkdaşlığımızın genişlənməsi istiqamətində səylər göstərəcəyik

**Filippin Respublikasının Prezidenti zati-aliləri cənab Ferdinand Romualdez Markosa**

Hörmətli cənab Prezident.

Filippin Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Filippin əlaqələrinin inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımızın genişlənməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Filippin xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2024-cü il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident.

Dost Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir və xoş arzularımızı çatdırmaqdan sevinc duyuruq.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq əlaqələrindən məmnunluğumuzu ifadə edir, münasibətlərimizin ortaq maraqlarımız naminə daha da möhkəmlənməsinə səy göstərdiyimizi vurğulayırıq.

Sizə uzun ömür, cansağlığı, dost Azərbaycan xalqına davamlı inkişaf və tərəqqi diləyirik.

*Ən xoş arzularla,*

***Əhməd Abdullah əl-Əhməd əl-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

## COP29 dünya ictimaiyyətinin diqqət mərkəzindədir




Bu gün dünyada iqlim dəyişikliyinin yaratdığı fəsadların aradan qaldırılması qlobal aləm üçün başlıca problemlərdən birinə çevrilib. Bu mövzu beynəlxalq müstəvidə aktiv şəkildə müzakirə olunur, həll yolları istiqamətində mühüm addımlar atılır.

Bütün dünyaya məlumdur ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər konfransları bu məsələdə xüsusi rola malikdir. Qlobal iqlim dəyişikliyi ilə mübarizədə davamlı addımlar atmaq üçün bu tədbir hər il müxtəlif ölkələrdə keçirilir. Bu il ünvan Azərbaycandır.

COP29-un yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə ciddi hazırlıq işləri görülür. Səmərəli və zəruri olan müzakirələr aparılır, təqdimatlar keçirilir.

→ 9



## Xoşniyyətli sarsılmaz türk birliyi

Türk Dövlətləri Təşkilatı hazırda böhran keçirən bir çox əməkdaşlıq formatlarından fərqli olaraq heç kimə qarşı deyil, kiminsə maraqlarının tapdanmasını hədəf götürməyib, əksinə, bu qurumun məramı hər kəsin özünü xoşbəxt hiss edə biləcəyi sülh və rifah mühitinin təmin olunmasıdır: "Biz heç kimə qarşı heç bir hərəkət etmirik. Biz heç kim üçün təhdid mənbəyi deyilik və heç vaxt olmayacağıq. Öz haqqımızı tələb edirik, qoruyuruq, bir-birimizi dəstəkləyirik" - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sözləri təşkilatın məram və məqsədlərini aydın xarakterizə edir.

2021-ci ildə "Şuşa Bəyannaməsi"nə imza ataraq münasibətləri ən yüksək müttəfiqlik səviyyəsində rəsmiləşdirən Azərbaycan və Türkiyənin hər zaman bütün məsələlərdə bir-birinin yanında olması, istənilən zərurət anında bir-birinə dəstək verməsi bütün türk dünyası üçün bir örnəkdir. Azərbaycan Prezidenti bəyan etdi ki, bu birlik bütün türk dünyasında olmalıdır və ondan sonra heç kim bizim işimizə müdaxilə edə bilməz.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən tədbirlər, o cümlədən növbəti aya nəzərdə tutulan Şuşa Zirvə görüşü də bu istiqamətdə önəmli addım olacaq, həm türk dünyasının gücünü, birlik və bir-birinə dəstək əzmini, həm də xoş niyyətini göstərəcək.

→ 5

# E.Ə.Məmmədovun Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunun rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Elçin Əli oğlu Məmmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunun rektoru təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2024-cü il*

# "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 665 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 aprel tarixli 43 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi"nin 7.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"7.2. Mərkəz "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.".

2. "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş "Dövlət Sosial Müdafiə Fondunun Nizamnaməsi"nin 7.3-cü bəndində "maliyyə hesabatlarını" sözləri "hesabatları" sözü ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət Məşğulluq Agentliyinin Nizamnaməsi"nin 7.2-ci bəndində "maliyyə hesabatlarını" sözləri "hesabatları" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2024-cü il*

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziya və icazələrin siyahısının təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2024-cü il*

Azərbaycan Respublikası Prezidentinin
2024-cü il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı

| Sıra №-si | Fəaliyyət növünün adı |
|---|---|
| 1. | Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması |

Azərbaycan Respublikası Prezidentinin
2024-cü il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı

| Sıra №-si | İcazənin adı |
|---|---|
| 1. | Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınmasına, o cümlədən ölkə ərazisindən tranzit keçirilməsinə icazə |
| 2. | Gəmi agenti xidmətlərinin göstərilməsi üçün sertifikat |
| 3. | "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazə ("Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən tikilən və ya təmir edilən gəmilər üçün lazım olan malların idxalı üzrə) |

# Baş nazir Əli Əsədov Albaniyanın Baş nazirinin müavini ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 11-də Albaniya Respublikası Baş nazirinin müavini, infrastruktur və energetika naziri Belinda Ballukunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Albaniya arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edilib.

Azərbaycan Hökuməti və Albaniya Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Bakıda keçirilən birinci iclasının əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı iki ölkə arasında əməkdaşlığın iqtisadi, ticari, energetika, sərmayə qoyuluşu, nəqliyyat, mədəniyyət, səhiyyə, turizm və digər sahələrdə genişləndirilməsi perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov da görüşdə iştirak edib.

# Azərbaycanın xarici işlər naziri Ukrayna Bərpa Konfransında iştirak edib



**İyunun 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasına işgüzar səfəri çərçivəsində Ukrayna Bərpa Konfransında iştirak və çıxış edib.**

XİN-dən AZƏRTAC-a bildirilib ki, çıxışda Ukrayna ətrafında vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən göstərilən humanitar yardımlar, reabilitasiya proqramları və yenidənqurma işləri barədə ətraflı məlumat verilib, ölkəmizin bundan sonra da öz müvafiq dəstəyini əsirgəməyəcəyi vurğulanıb.

Azərbaycanın hər zaman Ukraynanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini diqqətə çatdıran nazir Ceyhun Bayramov ölkəmizin Ukrayna ətrafında yaranmış vəziyyətin ilk günlərindən etibarən hərbi əməliyyatların ən qısa zamanda dayandırılmasını, habelə münaqişənin beynəlxalq hüquq normalarına əsaslanan diplomatik həll yolunun tapılmasını dəstəklədiyini qeyd edib.

Münaqişənin ciddi humanitar nəticələrinin dərin təəssüf doğurduğunu bildirən nazir Ceyhun Bayramov Azərbaycanın Ukraynaya humanitar dəstək göstərən ilk ölkələrdən biri olduğunu, bu günədək dərman, qida, elektrik generatorları və s. daxil olmaqla, ümumilikdə 40 milyon ABŞ dolları dəyərində yardım edildiyini diqqətə çatdırıb.

Bununla yanaşı, ölkəmiz tərəfindən Ukraynadakı münaqişədən əziyyət çəkən uşaqlar üçün tibbi və sosial-psixoloji reabilitasiya proqramının həyata keçirildiyi, bu günədək ümumilikdə 154 uşağın bu proqramda iştirak etdiyi bildirilib.

Azərbaycanın Ukraynada infrastrukturun bərpası istiqamətində layihələrə dəstək göstərdiyi, bu xüsusda İrpen şəhərindəki məktəb binasının yenidənqurma işlərinin artıq yekunlaşdığı diqqətə çatdırılıb.

İşğaldan azad olunmuş ərazilərində mina təhdidi ilə mübarizə aparan bir ölkə kimi Azərbaycanın minalardan zərər çəkmiş ölkələrlə həmrəyliyin gücləndirilməsini ardıcıl olaraq dəstəklədiyi, Ukraynaya minatəmizləmə sahəsində yardım edildiyi bildirilib.

# Azərbaycan-Avstriya hərbi əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edilib

**İyunun 11-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Avstriya Federal müdafiə nazirinin Baş katibi doktor Arnold H.Kammelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, general-polkovnik Z.Həsənov dost və tərəfdaş ölkənin nümayəndələrini Azərbaycanda görməkdən məmnunluğunu bildirib. Müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədən sonra azad edilmiş ərazilərdə minatəmizləmə işləri ilə bağlı görülən tədbirlər barədə qonağı məlumatlandırıb.

Görüşdə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi, o cümlədən təhlükəsizlik sahəsində əlaqələrin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramı çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının Avstriyanın təşkilatçılığı ilə keçirilən müxtəlif kurs, seminar və treninqlərdə iştirakı yüksək qiymətləndirilib.

Müdafiə naziri avstriyalı qonağı bu ilin sentyabrında Bakıda keçiriləcək "ADEX" 5-ci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinə dəvət edib.

A.H.Kammel Azərbaycan ilə Avstriya arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini qeyd edib.

Görüşdə Azərbaycan ilə Avstriya arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əlaqələrin cari vəziyyəti müzakirə edilib, birgə hərbi əməkdaşlığın inkişafında qərargah görüşlərinin və qarşılıqlı səfərlərin vacibliyi vurğulanıb.

# Hərbi qulluqçular arasında beşnövçülük üzrə yarışlar keçirilib

**Bu ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunda hərbi qulluqçular arasında hərbi beşnövçülük üzrə yarışlar keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, o cümlədən Vətənimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla anılıb. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Yarışlarda ümumilikdə 8 komanda olmaqla, 47 hərbi qulluqçu maneələr zolağının dəf edilməsi, avtomatdan atış, qumbaraatma, 8 kilometr məsafəyə kros və üzgüçülük növləri üzrə yarışlarda güclərini sınayıblar.

Fərdi və komanda birinciliyi uğrunda aparılan yarışlarda əsas məqsəd hərbi qulluqçuların fiziki və psixoloji dözümlülüyünün yoxlanılması, eləcə də güclü komandaların tərkibinin müəyyənləşdirilməsidir.

Yekun nəticələrə əsasən qaliblər mükafatlandırılıb.

# Ceyhun Bayramov Bolqarıstanın Baş naziri ilə görüşüb



**İyunun 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Berlində Ukrayna Bərpa Konfransı çərçivəsində Bolqarıstan Respublikasının Baş naziri və xarici işlər naziri Dimitar Qlavçevlə görüşüb.**

XİN-dən AZƏRTAC-a bildirilib ki, görüş zamanı tərəflər strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə əhəmiyyət verdiklərini, tərəfdaşlığın müxtəlif istiqamətlər, xüsusilə də energetika, kənd təsərrüfatı, turizm, nəqliyyat, infrastruktur, innovasiyalar və qarşılıqlı investisiyalar sahələrində daha da gücləndirilməsi üçün səyləri artıracaqlarını vurğulayıblar.

"Cənub qaz dəhlizi"ndən Azərbaycan təbii qazının Bolqarıstan-Yunanıstan İnterkonnektoru vasitəsilə Bolqarıstana ötürülməsinin, "yaşıl enerji" daxil olmaqla energetika sahəsində artan əməkdaşlığın, "Həmrəylik Halqası" çərçivəsində birgə səylərin münasibətlərə əhəmiyyətli töhfə verdiyi qeyd olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə Bolqarıstan arasında siyasi məsləhətləşmələrin daimi siyasi dialoqun saxlanılması baxımından vacib olduğunu vurğulayıb.

Nazir həmçinin həmkarını postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumatlandırıb.

Görüşdə tərəflər iki ölkə arasında siyasi dialoqun intensivləşdirilməsinin yeni perspektivli əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi baxımından önəmli olduğunu, beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində əməkdaşlığın gücləndirilməsinin böyük əhəmiyyət kəsb etdiyini bildiriblər.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər mövzular, eləcə də regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramovun Almaniyanın xarici işlər naziri ilə görüşü olub

**İyunun 11-də nazir Ceyhun Bayramov Almaniyaya işgüzar səfəri çərçivəsində Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə görüşüb.**




XİN-dən AZƏRTAC-a bildirilib ki, görüşdə nazirlər Azərbaycan-Almaniya münasibətlərinə böyük əhəmiyyət verdiklərini, əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını qeyd ediblər.

Görüşdə bu il Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi çərçivəsində Almaniya tərəfi ilə əməkdaşlıq üçün əlavə imkanların mövcud olduğu vurğulanıb. Bu çərçivədə Petersberq Dialoqunun birgə uğurlu təşkilinin, eləcə də hal-hazırda keçirilən Bonn Konfransının əhəmiyyəti qeyd edilib.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında normallaşma prosesindən bəhs edərək, sülh prosesi çərçivəsində mövcud problemləri və imkanları diqqətə çatdırıb. Bu çərçivədə sülh sazişinin imzalanması üçün Ermənistan Konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə davam edən iddianın maneə olduğu xatırladılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər müzakirə olunub.

# *Aleksandr LUKAŞENKO:* "Azərbaycanın qazandığı nailiyyətləri yüksək qiymətləndiririk"



**Belarus Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlimata görə, Prezident Aleksandr Lukaşenko Azərbaycan parlamentinin Sədrini səmimiyyətlə salamlayaraq, bu səfərin parlamentlər arasında münasibətlərin inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə qeyd olunub ki, ölkələrimiz arasında etimada, qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan strateji münasibətlər uğurlu inkişaf yolu keçib.

Aleksandr Lukaşenko Belarusda, xüsusən də ölkəsinin faşist işğalçılarından azad edilməsinin 80 illiyinin qeyd olunduğu bu günlərdə azərbaycanlıların Qələbəyə və Belarus torpaqlarının azad edilməsinə verdiyi töhfəni yüksək qiymətləndirdiklərini və onların şücaətlərini xatırladıqlarını qeyd edib.

Söhbət zamanı Prezident Aleksandr Lukaşenko Azərbaycana ötən ay baş tutmuş səfərini böyük məmnuniyyətlə xatırlayaraq, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşləri və dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətləri yüksək qiymətləndirib. O, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin çox uzaqgörən, qüdrətli bir şəxsiyyət olduğunu, Prezident İlham Əliyevin Ulu Öndərin layiqli davamçısı olduğunu söyləyib. "O, o qədər iş görüb ki, çətin ki, İlham Əliyevdən sonra hansısa prezident bunu təkrar etsin", - deyə Belarusun dövlət başçısı qeyd edib.

Belarus Prezidenti Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə birlikdə işğaldan azad olunmuş ərazilərimizə də baş çəkdiyini xatırladaraq, Şuşanın iqlimini və təbii gözəlliyini xüsusi qeyd edib. "Əminəm ki, siz bu ərazilərdə həyatı bərpa etməklə daha bir uğura imza atacaqsınız və biz bu işdə məmnuniyyətlə iştirak edəcəyik", - deyə Belarus lideri vurğulayıb.

Aleksandr Lukaşenko həmçinin iki ölkənin parlamentləri arasında əlaqələrin səviyyəsindən də razılıq ifadə edərək deyib ki, parlamentlərarası münasibətlər dövlətlərimiz arasında münasibətlərin mövcud səviyyəsindən geri qalmır.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən yüksək səviyyədə qonaqpərvərliyə və ölkəmiz haqqında xoş sözlərinə görə, Belarus Prezidentinə minnətdarlığını bildirərək Prezident İlham Əliyevin salamlarını Belarus Prezidentinə çatdırıb.

Prezident Aleksandr Lukaşenko onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Spiker Sahibə Qafarova qeyd edib ki, xalqlarımızı ənənəvi dostluq əlaqələri, ümumi dəyərlər birləşdirir və ölkələrimiz arasında münasibətlər dövlət müstəqilliyini bərpa etdikdən sonra bütün sahələrdə uğurla inkişaf edir. O, bu əlaqələrin inkişafında iki ölkənin dövlət başçıları arasında mövcud olan yüksəksəviyyəli əlaqələrin rolunu xüsusi vurğulayıb. Sahibə Qafarova, Prezident İlham Əliyevin Belarus Respublikasına 2018-ci ildə həyata keçirilən rəsmi səfərinin, o cümlədən Prezident Aleksandr Lukaşenkonun ötən ay Azərbaycana dövlət səfərinin və bu səfərlər zamanı imzalanmış sənədlərin münasibətlərimizə xüsusi təkan verdiyini bildirib.

Milli Məclisin Sədri bu münasibətlərin parlamentlər çərçivəsində də uğurla davam etdirilməsinin vacibliyini qeyd edib. O, qanunvericilik orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Görüşdə həmçinin iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın inkişafı, bu sahədə mövcud olan potensial barədə də fikirlər ifadə olunub. Belarus Prezidentinin Azərbaycana səfəri zamanı əməkdaşlığın daha da genişləndirilməsi imkanlarının, bir çox sahələr üzrə əlaqələrin dərinləşdirilməsi ilə bağlı müzakirələr aparıldığı bildirilib. Bunun üçün parlamentlərin də müvafiq qanunvericilik bazasının yaradılması istiqamətində fəaliyyət göstərməsinin önəmi vurğulanıb.

***"Azərbaycan"***

# Azərbaycan - Belarus münasibətləri dostluq və qardaşlıq prinsiplərinə əsaslanır



**Milli Məclisin Sədri Sahibə Qafarova Belarus Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova və Nümayəndələr Palatasının Sədri İqor Sergeyenko ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə tərəflər arasında təkbətək görüş keçirilib.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Azərbaycan parlament nümayəndə heyətini səmimiyyətlə salamlayan Respublika Şurasının Sədri Natalya Koçanova, Milli Məclis Sədrinin bu səfərinin münasibətlərimizə yeni impuls verəcəyinə inamını ifadə edib. O qeyd edib ki, Azərbaycan və Belarus təkcə tərəfdaş ölkələr deyil, iki ölkə arasında münasibətlər bütün sahələri əhatə etməklə, dostluq və qardaşlıq prinsiplərinə söykənir.

Nümayəndələr Palatasının Sədri İqor Sergeyenko da ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin mövcud səviyyəsindən razılığını bildirərək xalqlarımız arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu, bu gün ölkələrimiz arasında münasibətlərin bu möhkəm əsasa söykəndiyini söyləyib.

Görüşdə Azərbaycan və Belarus arasında münasibətlərin hazırkı yüksək səviyyədə inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolu qeyd olunaraq vurğulanıb ki, ali və yüksək səviyyədə həyata keçirilən səfərlər və imzalanan sənədlər əlaqələrin daha da dərinləşməsini təmin edib. Həmçinin qeyd olunub ki, son illərdə müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin sayının artması da münasibətlərimizin yüksək səviyyədə olduğunu nümayiş etdirir.

Qeyd olunub ki, bu günədək Azərbaycan və Belarus arasında siyasi, iqtisadi, sosial, humanitar, elmi-texniki və regional əməkdaşlıq məsələlərini əhatə edən 150-yə yaxın sənəd imzalanıb ki, bu sənədlər ikitərəfli münasibətlərin inkişafı üçün fundamental əsaslar yaradıblar. Tərəflər həmçinin əməkdaşlığın müxtəlif sahələrdə daha da dərinləşdirilməsinin əhəmiyyətini qeyd edərək, bu istiqamətlərdə mövcud imkanlarla bağlı fikirlərini ifadə ediblər.

Söhbət zamanı həmçinin əlaqələrimizin mühüm bir istiqamətini əhatə edən beynəlxalq platformalarda əməkdaşlıq məsələlərinin əhəmiyyəti də qeyd edilib və bildirilib ki, ölkələrimiz beynəlxalq təşkilatlarda da uğurlu əməkdaşlıq təcrübəsinə malikdirlər. Bu günə qədər ölkələrimiz beynəlxalq platformalarda bir sıra məsələlərdə bir-birinə qarşılıqlı dəstək göstəriblər.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan və Belarus coğrafi baxımdan bir-birinə yaxın ölkələr olmasalar da, ölkələrimiz və xalqlarımız arasında qarşılıqlı hörmət və etimada söykənən yüksək səviyyədə münasibətlər mövcuddur. O, parlamentlərimiz arasında əlaqələrin də bu əsaslara söykəndiyini qeyd edib.

Görüşdə qanunverici orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığından məmnunluq ifadə edilib. Spiker Sahibə Qafarova beynəlxalq fəaliyyət çərçivəsində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində əməkdaşlığın da önəmini qeyd edib.

Söhbət zamanı parlamentlərimiz arasında əməkdaşlıq haqqında anlaşma memorandumunun imzalandığı xatırlanaraq, bu sənədin qanunverici orqanlarımız arasında əlaqələrin inkişafına töhfə verdiyi bildirilib. Qeyd olunub ki, qarşılıqlı səfərlər, dostluq qruplarının sıx təmasları, parlament komitələri arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın yaradılması əlaqələrimizin daha da genişləndirilməsinə töhfə verə bilər.

Spiker Sahibə Qafarova görüşdə Azərbaycanın 30 il işğaldan əziyyət çəkdiyini, 2020-ci ildə öz gücü hesabına əldə etdiyi qələbə nəticəsində ərazi bütövlüyünü bərpa etdiyini, ötən il həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyini təmin etdiyini diqqətə çatdırıb. Bildirilib ki, işğal zamanı bütün şəhər və rayonlarımız, infrastruktur, tarixi və mədəniyyət abidələri, dini məbədlər tamamilə dağıdılıb, talan olunub. O, hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən və "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarına əsaslanan nəhəng bərpa və quruculuq işləri barədə də məlumat verib. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən yenidənqurma işlərində Belarus şirkətlərinin də iştirakı ilə bağlı əldə olunmuş razılaşma yüksək qiymətləndirilib.

Söhbət zamanı həm humanitar əməkdaşlıq, həm də mədəniyyət sahəsində əlaqələrin də yüksək səviyyədə olduğu qeyd edilərək vurğulanıb ki, bu da öz növbəsində iki xalqın bir-birinə daha da yaxınlaşmasında xüsusi rol oynayır. Bildirilib ki, xalqlarımız arasında dostluq əlaqələri mühüm əsaslara malikdir. Bu il Belarusun faşist işğalçılarından azad edilməsinin 80-ci ildönümünün tamam olduğu, Belarus torpaqlarının azad edilməsində azərbaycanlıların da şücaət göstərdikləri qeyd olunaraq, Belarus xalqının bunu heç vaxt unutmadığı və yüksək qiymətləndirdiyi diqqətə çatdırılıb. Həmçinin qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi, şəhərlərimiz arasında qardaşlıq haqqında müqavilələrin imzalanması kimi tədbirlərin önəmi diqqətə çatdırılıb.

Görüşdə bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 haqqında da söhbət açılıb və spiker Sahibə Qafarova qarşı tərəfi COP29 çərçivəsində Milli Məclisin Parlamentlərarası İttifaq ilə birlikdə təşkil edəcəyi Parlament konfransında iştiraka dəvət edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib

**İyunun 11-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitənin sədri Hicran Hüseynova gündəliyə dörd məsələnin - Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələrinin birinci oxunuşda və ikinci oxunuşda olan Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında iki qanun layihəsinin daxil edildiyini söyləyib.

Hicran Hüseynova Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim edərək bildirib ki, layihə yetkinlik yaşına çatmayanların erkən evliliyi və qohum nikahlarla bağlı ölkədə mövcud olan ciddi problemlərin qarşısının alınması məqsədilə hazırlanıb. Komitə sədri diqqətə çatdırıb ki, layihədə adları çəkilən məcəllələrə dəyişiklik etməklə nikah yaşının azaldılması ilə bağlı istisnanın ləğvi, erkən evliliyin təşkilinə, həmin yaşda olan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olmağa, erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və dini kəbinkəsməyə görə geniş subyektlər dairəsi üçün məsuliyyətin müəyyən edilməsi təklif olunur.



Sənədə əsasən, Cinayət Məcəlləsinin 176-1-ci maddəsinin adının dəyişdirilməsi, yəni "Qadını nikaha daxil olmağa məcbur etmə" deyil, "Nikaha və ya erkən evliliyə daxil olmağa məcbur etmə" kimi müəyyən edilməsi cinayətdən zərər çəkmiş şəxslərin dairəsini genişləndirir. Məcəlləyə təklif edilən 176-2-ci maddə 16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə görə valideynlər və ya yetkinlik yaşına çatmayanları tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya erkən evliliyə daxil olan yetkinlik yaşına çatmış şəxs üçün məsuliyyət müəyyən edir.

Layihədə İnzibati Xətalar Məcəlləsinə 189-1-ci maddənin daxil edilməsi təklif olunur ki, burada on altı yaşına çatmayan şəxs barəsində onun və ya evliliyə daxil olmaq niyyətində olan digər şəxsin valideynləri və ya onları tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya evliliyə daxil olmaq niyyətində olan yetkinlik yaşına çatmış şəxs tərəfindən nişanlanmaya və ya evliliyə dair digər sövdələşməyə daxil olmağa görə cərimə və ya işin hallarına görə, inzibati həbs tətbiq olunur. Həmçinin ictimai iaşə obyektlərini idarə edən şəxslər tərəfindən erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və yetkinlik yaşına çatmayan şəxslər barəsində dini kəbinkəsməyə görə inzibati tənbeh nəzərdə tutan 189-2 və 189-3-cü maddələrin məcəlləyə əlavə edilməsi erkən evliliklə mübarizədə mühüm addımlardan biri olacaqdır.

Bununla yanaşı, qanun layihəsində aralarında nikahın bağlanması yol verilməyən subyektlər dairəsinin genişləndirilməsi ilə bağlı təkliflər yer alıb. Belə ki, Ailə Məcəlləsinin 12-ci maddəsində (Nikahın bağlanmasına mane olan hallar) yaxın qohumlarla yanaşı, qardaşların və bacıların ümumi bioloji baba və nənəsi olan uşaqlar, o cümlədən bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu arasında nikahın bağlanmasına yol verilməyən yeni normanın təsbit edilməsi nəzərdə tutulur.

Məsələ ətrafında müzakirələrdə çıxış edən Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, üzvləri Rəşad Mahmudov, Sədaqət Vəliyeva, Tamam Cəfərova, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov layihədə təklif olunan dəyişikliklərin mütərəqqi xarakter daşıdığını bildiriblər.

Tədbirdə iştirak edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili şöbəsinin rəis müavini İmran Əliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova, Ədliyyə Nazirliyinin Qanunvericilik Baş İdarəsinin Sosial Normativ Aktlar İdarəsinin aparıcı məsləhətçisi Nərgiz Məmmədli məsələyə dair bəzi qeydlərini səsləndiriblər. Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qaldırılan məsələlərə aydınlıq gətirib.

Sonra iclasda Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb.

Məsələ barədə məlumat verən komitə sədri Hicran Hüseynova diqqətə çatdırıb ki, təklif edilən dəyişikliklərdə "elektron xidmət"in anlayışı verilir, dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılmasına dair tələblər, həmin sistemin istifadəyə verilməsi, elektron xidmətlərin qeydiyyatının həyata keçirilməsi məqsədilə vahid reyestrin aparılması qaydaları, dövlət informasiya ehtiyatları və sistemlərinin təhlükəsizlik meyarları üzrə monitorinqi və auditinə dair ümumi qaydalar müəyyən olunur.

İclasda habelə Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri də ikinci oxunuşda nəzərdən keçirilib.

Müzakirəyə təqdim edilən qanun layihələrinin hər biri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Parlamentlərarası İttifaq tərəfindən onlayn iclas təşkil edilib

**İyunun 11-də Parlamentlərarası İttifaq tərəfindən "COP29-a hazırlıq: iqlim dəyişikliyi üzrə parlamentlərarası dialoq" mövzusunda onlayn iclas təşkil olunub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Milli Məclisin deputatı Soltan Məmmədov çıxış edib.

O, Azərbaycanın iqlim dəyişikliyi probleminin həllində və "yaşıl enerji"yə keçiddə verdiyi töhfələri qeyd edib. Diqqətə çatdırılıb ki, ölkəmiz bərpaolunan enerji mənbələrinə sərmayə qoyuluşuna görə liderlər sırasındadır.

Soltan Məmmədov COP29 çərçivəsində Azərbaycan Milli Məclisi və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçiriləcək Parlament Toplantısının əhəmiyyətindən söz açıb, bu platformanın parlamentarilərə fikir mübadiləsi aparmağa və iqlim dəyişikliyi ilə mübarizədə təkliflərlə və yeni fikirlərlə çıxış etməyə mühüm imkanlar yaradacağına inamını ifadə edib. O, COP29-la bağlı məlumat verib, görüş iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

***"Azərbaycan"***

# Kənd təsərrüfatı təyinatlı torpaqlarda tikililərin inşası qanunvericiliklə tənzimlənəcək

**İyunun 11-də Milli Məclisin Aqrar siyasət komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) müzakirə olunub.**



Komitənin sədri Tahir Rzayev diqqətə çatdırıb ki, qanun layihəsi Azərbaycan Prezidentinin "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" 15 iyul 2021-ci il tarixli fərmanından irəli gələn tələbləri özündə ehtiva edir. Layihənin bu günün tələblərinə uyğun hazırlandığını deyən Tahir Rzayev sənəddə təklif olunan dəyişikliklərin ölkədə kənd təsərrüfatının və emal sənayesinin inkişafı, kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadənin səmərəliliyinin artırılması baxımından əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Sonra Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Firudin Tağıyev və İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin şöbə müdiri İlqar Həbiyev təklif olunan dəyişikliklər barədə deputatlara məlumat veriblər. Onlar kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadənin səmərəliliyini yüksəltmək üçün kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının dəyişdirilməsinin və kənd təsərrüfatı təyinatlı torpaqlarda tikililərin inşasının (quraşdırılmasının) tənzimlənməsinin sənəddə təklif olunan çevik mexanizmləri barədə danışıblar. Qeyd olunub ki, qanun layihəsi yalnız kənd təsərrüfatı yerlərində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədləri üçün tikinti obyektlərinin həyata keçirilməsini nəzərdə tutur.

Sənədin müzakirəsində komitə sədrinin müavini Sabir Hacıyev, komitə üzvləri Cavanşir Paşazadə, İqbal Məmmədov, Azər Badamov, Emin Hacıyev layihədə təklif olunan dəyişiklikləri məqsədəmüvafiq hesab ediblər, bəzi fikir və qeydlərini səsləndiriblər.

Qanun layihəsi birinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Albaniya parlamentinin üzvləri Milli Məclisdə olublar

İyunun 11-də Albaniya parlamentinin üzvləri Eduard Şalsi və Arben Pellumbi Milli Məclisdə olublar. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, Milli Məclisin Albaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Etibar Əliyevlə görüşdə dövlətlərarası münasibətlərin inkişaf dinamikasından məmnunluq ifadə edilib, iki ölkə arasında mövcud olan dostluq və qardaşlıq əlaqələrinin inkişafında ölkə başçılarının xüsusi rolu vurğulanıb.

İkitərəfli əlaqələrin dərinləşdirilməsində ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, keçirilən görüşlərin, imzalanan sənədlərin rolu diqqətə çatdırılıb, dövlət başçılarının dostluq münasibətlərinin, ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsini hədəfləyən strateji baxış və qərarlarının əhəmiyyəti qeyd edilib.

Azərbaycana səfərin məqsədləri barədə məlumat verən qonaqlar keçirilən görüşləri, aparılan danışıqları yüksək qiymətləndiriblər. Onlar iyunun 10-da keçirilən Azərbaycan-Albaniya iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 1-ci iclasının, imzalanan sənədlərin ölkələr arasında çoxşaxəli əməkdaşlığın dərinləşməsində əhəmiyyətini bildiriblər.

Albaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Əliabbas Salahzadə iki ölkə arasında münasibətlərin bütün istiqamətlər üzrə sürətlə inkişaf etdiyini deyib, qanunverici orqanlarımız arasında mövcud əməkdaşlığın genişləndirilməsi barədə fikirlərini bölüşüb.

Söhbət zamanı Albaniya parlamentində Azərbaycanla dostluq qrupunun tezliklə yenidən formalaşdırılmasının vacibliyi vurğulanıb, parlamentarilərimizin qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin əlaqələrimizin daha da genişlənməsinə xidmət edəcəyi bildirilib.

***"Azərbaycan"***



# Güzəşt olmayacaq

## İlham Əliyevin sülh gündəliyi bölgənin inkişafının və təhlükəsizliyinin yeganə təminatçısıdır

**Azərbaycan Cənubi Qafqazda ədalətli və davamlı sülhün əldə olunması üçün səylərini davam etdirir. Ölkəmizin qətiyyəti sayəsində regionda yaranan və sülh diktə edən reallıqların, ümumilikdə bölgə ölkələri üçün yeni və mühüm imkanlar açacağı şübhəsizdir.**

### Sülhə doğru addımlamaq üçün yaxşı imkanlar var

Son aylarda baş verən proseslər, xüsusən sərhədlərin delimitasiyası və demarkasiyasının başlanması sülh üçün mühüm perspektivlər formalaşdırır. Ötən həftə Qahirədə Misir Prezidenti Əbdülfəttah əs-Sisi ilə birgə mətbuata bəyanatlarla çıxışı zamanı Prezident İlham Əliyev diqqətə çatdırdı ki, hazırda Azərbaycan və Ermənistanın dövlət sərhədlərini müəyyənləşdirmək işində müəyyən uğurlara nail olunub. Həmçinin iki ölkə arasında artıq 12,7 kilometr dövlət sərhədinin razılaşdırılmasını, Qazax rayonunun dörd kəndinin danışıqlar yolu ilə Azərbaycana geri qaytarılmasını müsbət hal kimi qiymətləndirdiyini deyən dövlətimizin başçısı bildirib ki, danışıqlar prosesində də irəliləyiş üçün yaxşı imkanlar var. Hər halda Azərbaycan buna hazırdır.

Həmçinin bazar ertəsi Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü zamanı Prezident İlham Əliyev regional məsələlərlə bağlı fikir mübadiləsi aparıb.

Bütün bunlar həm də onu göstərir ki, Azərbaycan Prezidentinin sülh gündəliyi bölgənin inkişafının və təhlükəsizliyinin yeganə təminatçısıdır.

### Ermənistan konstitusiyasını dəyişməlidir

Göründüyü kimi, Azərbaycanın yürütdüyü qətiyyətli siyasət bölgədə qarşılıqlı etimad quruculuğunun, normallaşmanın, davamlı sülhün əldə edilməsi üçün şərait yaradıb. Azərbaycan ilə Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiya işlərinə start verilməsi sülh prosesinin uğurlu başlanğıcı kimi böyük əhəmiyyət daşıyır.

Bir başqa reallıq isə ondan ibarətdir ki, sülh müqaviləsinin imzalanması ilə Ermənistan, nəhayət ki, onilliklərdən sonra beynəlxalq hüquqla müəyyənləşmiş sərhədləri çərçivəsində rahat və təhlükəsiz şəraitdə yaşamağa başlaya bilər. Amma hazırda Ermənistanın həm iqtidarında, həm də müxalifətində müşahidə olunan revanşist əhvali-ruhiyyənin fonunda İrəvanın sülh müqaviləsini imzalamaqdan yayındığını aydın görürük. Bakının xəbərdarlıqlarına baxmayaraq, absurd bəhanələrə sığınaraq konstitusiyasında dəyişiklik etmək istəməməsi isə Ermənistanın sülh müqaviləsi bağlansa belə Azərbaycana qarşı ərazi iddiasından əl çəkmək istəmədiyini göstərir. Bütün bu sadalananlar, təbii ki, Ermənistan ilə Azərbaycan arasında dayanıqlı sülhün əldə olunmasına başlıca maneədir.

TÜRKPA nümayəndə heyətini qəbul etdiyi zaman Prezident İlham Əliyev də vurğuladı ki, Azərbaycanın mövqeyi beynəlxalq hüquq normalarına əsaslanır və ölkəmizin heç vaxt heç bir ölkəyə, o cümlədən Ermənistana qarşı ərazi iddiası olmayıb və yoxdur. Amma onların bizə qarşı ərazi iddiaları var idi. Məhz onların konstitusiyasına sonradan daxil olan müstəqillik bəyannaməsində Azərbaycana qarşı ərazi iddiaları var: "Təbii ki, Ermənistanın hazırkı konstitusiyası dəyişməz qaldığı halda iki ölkə arasında sülh sazişinin bağlanması, sadəcə, mümkün deyil".

Bir məqama da diqqət çəkək ki, Ermənistanın konstitusiyasını dəyişdirməkdən ciddi-cəhdlə boyun qaçırmasına, necə deyərlər, bunu özü üçün faciə kimi qəbul etməsinə baxmayaraq, dünyada bu cür nümunələr var. Belə ki, 1998-ci il noyabrın 19-da Böyük Britaniya parlamenti Şimali İrlandiya aktını qəbul etdi. Həmin qanuna əsasən, 1920-ci il "İrlandiya hökuməti haqqında" və 1973-cü il "Şimali İrlandiya Konstitusiyası haqqında" qanunlar ləğv olundu və Britaniya ilə İrlandiya Respublikası arasında 1998-ci il aprelin 10-da əldə edilmiş Belfast razılaşmasına əsasən yeni qaydalar müəyyən edildi. Şimali İrlandiyanın Konstitusiyasının 2-ci və 3-cü maddələri çıxarıldı. İrlandiya Respublikasının Konstitusiyasından Şimali İrlandiyaya ərazi iddialarını nəzərdə tutan maddələrin çıxarılması təsbit olundu.

### Ölü qurumu diriltmək cəhdləri əbəsdir

Ermənistan de-fakto fəaliyyətini dayandırmış ATƏT-in Minsk qrupunun mövcudluğunun saxlanması istiqamətində də riyakar çaba göstərir.

28 illik yarıtmaz fəaliyyəti nəticəsində danışıqlar prosesinin dalana dirənməsinə səbəb olan və münaqişənin müharibə yolu ilə çözümündən başqa çıxış yolu qoymayan Minsk qrupunun fəaliyyətinə hüquqi cəhətdən də son qoyulmasının vaxtı çoxdan çatıb. Amma İrəvan ölü qurumu diriltmək üçün mənasız səylər göstərir. Çünki Minsk qrupu məhz vaxtilə prosesin Ermənistanın xeyrinə dondurulmasına sərf etmiş, Azərbaycan torpaqlarının işğalının əbədiləşdirilməsinə çalışmışdı. Hazırda İrəvan Minsk qrupunun fəaliyyətinin dayandırılması üçün Azərbaycanla birgə ATƏT-ə müraciət etməkdən yayınması ilə ölkəmizə qarşı gələcəkdə də ərazi iddiası irəli sürmək niyyətində olduğunu ortaya qoyur.

Sözügedən görüşdə dövlət başçısı bildirdi ki, Ermənistan tərəfinə təklif etmişik ki, Azərbaycan və Ermənistan ATƏT-ə birgə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Minsk qrupuna heç bir ehtiyac yoxdur, o, indi fəaliyyət göstərmir: "Biz onun fəaliyyət göstərməsinə de-fakto imkan verməyəcəyik. Qaldı ki de-yure - hüquqi cəhətdən bu, ləğv edilsin və bu, Ermənistanın nə qədər səmimi olmasından xəbər verəcək. Əgər Ermənistan Minsk qrupunun saxlanmasına üstünlük versə, deməli, onların bizə qarşı ərazi iddiaları davam edir".

### İntihara bərabər istək

Qeyd edildiyi kimi, Ermənistanın həm iqtidar, həm müxalifət düşərgəsində revanşist meyillərin getdikcə güclənməsi müşahidə olunur. Erməni lobbisi və kilsəsi isə revanşizmə dəstək verən aparıcı qüvvə kimi çıxış edir.

Bu da göstərir ki, 44 günlük müharibədə 11 minə yaxın fərarisi olmasından, ordusunun Azərbaycan Ordusu tərəfindən darmadağın edilməsindən, hərbi texnikasının sıradan çıxarılmasından dərs almayan revanşistlər yenidən müharibə istəyindədirlər. Ancaq hazırda Ermənistanda yaşanan müharibə eyforiyası yumşaq ifadə etsək, gülüncdür. Çünki "dəmir yumruq" yerindədir və Ermənistanın savaş istəyi ona olduqca baha başa gələ bilər.

"2020-ci və 2023-cü illərin hadisələrindən sonra Azərbaycana qarşı ərazi iddiaları irəli sürmək də, ümumiyyətlə, intihara yaxındır", - deyən Prezident İlham Əliyevin fikrincə, ermənilər öz hədəflərini, cəmiyyətdəki əhvali-ruhiyyəni dəyişməlidirlər.

Dövlət başçısı onu da qeyd etdi ki, onlar revanşizm ideyalarından tamamilə imtina etməlidirlər və biz görürük ki, belə ideyalar təkcə müxalifətdə deyil, iqtidarda da var. Bütün bu məsələlər, təbii ki, aydınlaşdırılmalı və tənzimlənməlidir.

### Ərazi iddiaları kamuflyaj olunur

İrəvan qonşularına qarşı ərazi iddiaları irəli sürməsi faktını təkzib etməyə yönəlmiş bəyanatı ilə siyasi riyakarlığını növbəti dəfə ortaya qoydu. Bununla həm də beynəlxalq ictimaiyyətin diqqətini iki ölkə arasında sülhə nail olmaq üçün maneə təşkil edən çağırışlardan yayındırmaq niyyəti güddüyünü göstərdi.

Azərbaycan Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı şərhində də vurğulanır ki, bu gün, həqiqətən də, əsas problem, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın müstəqillik aktına açıq şəkildə istinad edən Ermənistan konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarıdır: "Azərbaycanın milli təhlükəsizliyinə bilavasitə təsir edən bu iddianın konstitusiyadan çıxarılmasını tələb etməyə legitim hüququ var və bu, Ermənistanın daxili işlərinə müdaxilə kimi qələmə verilə bilməz".

Şərhdə o da qeyd olunur ki, Ermənistan Xarici İşlər Nazirliyinin bu problemin gözardı edilə biləcəyi ilə bağlı məntiqi, bu ölkənin dayanıqlı sülhdə maraqlı olmadığını və yalnız bu vəziyyəti gələcəkdə yenidən Azərbaycana qarşı təcavüzə başlamaq üçün ehtiyat variant kimi saxlamağa çalışdığını göstərir. Bununla yanaşı, Ermənistanın keçmiş münaqişənin qalığı olan Minsk qrupunun bərpasına yönələn cəhdləri və hərbiləşmə siyasətini davam etdirməsi bu ölkənin Azərbaycana qarşı gizli gündəminin mövcud olduğunu nümayiş etdirir.

Ancaq Ermənistanın hələ də ölkəmizə qarşı ərazi iddiası güdməsi, müxtəlif çirkin yollara əl ataraq sülhü təhdid etməsi ona yaxşı heç nə vəd etmir. Çünki Azərbaycan Ermənistanın milli maraqlarımızı təhdid edən istənilən cəhdinin qarşısını qətiyyətlə alacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Qurban bayramı ilə bağlı fətva verib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Qurban bayramı ilə bağlı fətva verib. Bu barədə AZƏRTAC-a QMİ-nin Mətbuat xidmətindən məlumat verilib.**

Fətvada deyilir: "Bağışlayan və Mərhəmətli Allahın adı ilə!

Qarşıdan islam aləminin və xalqımızın müqəddəs günlərindən biri, Rəbbimizin insanlığa lütf və inayətinin rəmzi olan mübarək Qurban bayramı gəlir. Bütün səmavi dinlərin əziz tutduğu, Həzrət İbrahim əleyhissalamın əhdi və Həzrət İsmayıl əleyhissalamın adı ilə bağlı bu müqəddəs gün əsrlər boyudur ki, dünyamıza ümumbəşəri birlik və insanpərvərlik mesajını çatdırır.

Şükürlər olsun ki, həmrəylik, yardımlaşma və mənəvi təmizlənmə rəmzi olan müqəddəs Qurban bayramını xalqımız Zəfər abu-havasında - separatçı rejimin süqutu, müqəddəs bayrağımızın Xankəndidə, Əsgəranda, Xocalıda dalğalanması, Qarabağ məscidlərinin bərpası, Zəngilan məscidinin nəfis şəkildə yenidən inşası, minarələrimizdən ucalan azan sədalarının qüruru ilə qarşılayır. Müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş ölkəmizdə Böyük qayıdışın ruh yüksəkliyi yaşanır, ata-baba torpaqlarına qayıdanlar dualarla İsmayıl qurbanı ibadətini yerinə yetirirlər. Bu şərəfi və qüruru bizə yaşadan, Azərbaycan tarixində Qarabağ Fatehi və Böyük qayıdışın müəllifi adlarını qazanan, ölkəmizin bütün ərazisində suverenliyimizin tam bərpası kimi tarixi vəzifəni yerinə yetirən dövlətimizin başçısı İlham Əliyevə, eləcə də bu çətin yolda yaxın sirdaşı və yoldaşı olan Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, bütün ailə üzvlərinə dindarlarımız adından dərin minnətdarlığımızı bildirir, bu mübarək günlərdə onlara ən böyük İlahi nemət olan cansağlığı, fədakar zəhmətlərinə uğurlar diləyirik.

Azərbaycan müsəlmanları adından duamız budur ki, Allah Vətən uğrunda, böyük Zəfər yolunda, xalqın azadlığı və səadəti naminə canlarından keçmiş, uca şəhidlik məqamına yüksəlmiş övladlarımıza rəhmət eləsin, qəhrəman qazilərimizə şəfa bəxş etsin, şanlı ordumuzun bütün əsgər və zabitləri üçün dilədiyimiz xeyir-dualar müstəcab olsun! Uca Allah Azərbaycan dövlətini və xalqını, onun müdrik rəhbərini hər zaman müzəffər etsin!

Müsəlman aləmi üçün əziz olan mübarək Eyd-əl-Əzha ərəfəsində Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası ənənəvi olaraq Qurban bayramına dair tövsiyələrini çatdırmağı vacib bilir: "Bildiririk ki, Qurban bayramına dair hökmlərə və şəri qaydalara əsasən, qurban kəsmək Məkkədə həcc ziyarətini icra edən zəvvarlara vacib buyurulmuşdur. Digər yerlərdə isə imkanı olan adamların qurban kəsmələri sünnət əməl, qurban ətini fəqir və kasıb ailələrə paylamaq böyük savab sayılır. Unutmaq lazım deyil ki, Uca Allah müqəddəs "Qurani-Kərim"də qurbanlığın dəyərini deyil, xeyirxah və təmiz niyyətin əhəmiyyətini vurğulayır: "Onların (qurbanların) nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Ona çatan yalnız sizin təqvanızdır..." (Həcc; 37) Bu ayədəki ilahi hikmətə inanan hər bir kəs Qurban ibadətinin mahiyyətini təhrif etməkdən, bidətçi yanaşmalardan çəkinməlidir.



Adətən, qurbanlıq üçün qoyuna üstünlük verilir. Lakin keçi, inək və dəvəni də qurbanlıq üçün seçmək olar. Həmin ətin bölgüsündə hər kəs azaddır, hərçənd imkansızlara yardım etmək dinimizin ruhuna daha yaxındır, çünki belə davranmağı Əziz Peyğəmbərimiz (s) bizlərə tövsiyə edib. Qurbankəsmə ayini təmizlik və yüksək sanitariya şəraitində, münasib yerlərdə icra edilməlidir. Şəriət qaydalarına görə, qurban kəsilən heyvan sağlam və kəsimə yararlı olmalıdır. Xəstə, arıq və qüsurlu heyvanlar qurbanlığa münasib sayılmır. Adətən müəyyən yaş həddinə çatmış heyvanlar kəsilir. Keçi və qoyunun yaşı bir ilə yaxın, öküz və inək bir və ya iki ildən artıq, dəvənin isə beş ili tamam olmalıdır. Şəriətə görə, heyvanın üzü qibləyə uzadılaraq, Qurban niyyəti ilə Allahın adı çəkilərək kəsilməsi vacibdir. Qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibi özünə, digər hissə fəqir və kasıb ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur.

Elm və Təhsil Nazirliyi Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının 2024-cü il 27 may tarixli 32/105 saylı məktubuna əsasən, Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq Qurban bayramı Zül-hiccə ayının 10-na - Miladi təqvimlə iyunun 16-na təsadüf edəcək. Şəriətə uyğun olaraq qurban kəsimi iyunun 16-dan başlayaraq üç gün davam edə bilər. İyunun 16-da məscidlərimizdə bayram namazları qılınacaq. Azərbaycanda Qurban bayramı günləri dövlət tərəfindən qeyri-iş günü elan edilib. Dövlətimizin dindarlara olan xüsusi diqqətinə görə təşəkkürümüzü bildirir, din-dövlət münasibətlərinin yüksək səviyyədə inkişafı yolunda xeyirxah, səmərəli fəaliyyətlərə uğurlar arzulayırıq.

Hədislərdə qeyd olunduğu kimi, Qurban bayramının gecəsi və günü duaların qəbul olunduğu zamandır. Bu əziz bayram münasibətilə Qafqaz Müsəlmanları İdarəsi və onun rəhbərliyi Azərbaycan xalqını və bütün dünya müsəlmanlarını təbrik edir, Qurban bayramının daşıdığı mənəvi dəyərlərə həmişə sadiq qalmağı Uca Yaradandan raz-niyaz ilə diləyir. Allah-taala dua və ibadətlərinizi qəbul etsin, Qurban bayramınız mübarək olsun!

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh!".

# Qərbi Azərbaycan İcmasında İrəvanın ermənilərə verilməsi məsələsi barədə kitabın təqdimatı olub

**İyunun 11-də Qərbi Azərbaycan İcmasında (QAİ) "Batum konfransında erməni dövlətinin yaradılması və İrəvanın ermənilərə verilməsi məsələsi" kitabının təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli icmada bu cür silsilə tədbirlərin mütəmadi olaraq keçirildiyini deyib.

Bildirilib ki, Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışındakı çıxışında icmanın qarşısında duran vəzifələr barədə geniş məlumat vermişdi. Həmçinin dövlətimizin başçısının tövsiyələri əsasında Qərbi Azərbaycana qayıdış istiqamətində ardıcıl və sistemli iş aparılır.

İcma sədri əlavə edib ki, sovet dövründə Azərbaycan həqiqətlərinin öyrənilib nə xalqımıza, nə də dünya ictimaiyyətinə çatdırılmasına imkan verilmirdi. Amma ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra tariximiz və taleyimiz ilə bağlı həqiqətləri öyrəndik və dünyaya yaya bildik.

Ə. Ələkbərli Azərbaycan həqiqətlərinin Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin birinci mərhələsində də diqqət mərkəzində saxlanıldığını bildirib.

Kitabın müəllifi, tarix üzrə elmlər doktoru Vasif Qafarov qeyd edib ki, nəşrdə Batum konfransında (11 may - 4 iyun 1918-ci il) erməni dövlətinin yaradılması və İrəvanın ermənilərə verilməsi məsələsi ilə bağlı gedən müzakirələr və qəbul edilən qərarlar dövrün ilkin arxiv sənədləri əsasında detallı şəkildə araşdırılıb və Qərbi Azərbaycan ərazisində erməni dövlətinin hansı şərtlər əsasında yaradılması ilə bağlı tarixi həqiqətlər üzə çıxarılıb. Kitabda faktlarla sübuta yetirilir ki, İrəvan şəhəri də Qarabağa bir daha ərazi iddiaları irəli sürməyəcəkləri şərtilə ermənilərə verilib.

Kitab beynəlxalq münasibətlər tarixi ilə məşğul olan mütəxəssislər, bu ixtisas üzrə təhsil alan tələbə və magistrlər və yaxın keçmişimizin tarixi ilə maraqlanan geniş oxucu dairəsi üçün nəzərdə tutulub.



# Dost gəlişi bayram olur

## Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri iki ölkə arasındakı münasibətlərin ən yüksək səviyyədə olduğunu bir daha sübut etdi

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev iyunun 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankarada işgüzar səfərdə olub. Dövlət başçıları iki qardaş ölkə arasında gündən-günə inkişaf edən əlaqələrdən məmnunluqlarını bildiriblər. Qeyd olunub ki, artıq iki ölkə arasında olan münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatıb, qarşılıqlı əlaqələr bütün sahələri əhatə edir.**

Görüşdə ölkələrimiz arasında enerji, nəqliyyat, iqtisadiyyat, ticarət əlaqələrinin genişləndirilməsi, müdafiə, hərbi sənaye və digər sahələrdə əməkdaşlıq məsələləri ətraflı müzakirə olunub, Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının genişləndirilməsinin əhəmiyyəti, Orta dəhlizin inkişafı ilə bağlı iki ölkənin birgə gördükləri işlərin önəmi vurğulanıb.

Liderlər arasında müzakirə olunan məsələlərdən biri də Türk Dövlətləri Təşkilatı üzvlərinin, o sıradan ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi və Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşü olub. Prezident İlham Əliyev bildirib ki, hazırda Azərbaycanla Türkiyə qədər dünyada səmimi və qardaşlıq münasibətləri olan ikinci bir nümunə yoxdur və "Bir millət, iki dövlət" arasında olan münasibətlər gündən-günə inkişaf edir.

Tarixindən və bir soy-kökdən qaynaqlanan bu qədim qardaşlıq münasibətləri dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən ən yüksək səviyyəyə qaldırılıb. İki lider həmçinin türk dünyasının formalaşmasında, Türk Dövlətləri Təşkilatının beynəlxalq gücə çevrilməsində ən çox səy göstərən dövlət başçılarıdır.

Bu gün Azərbaycanla Türkiyə qlobal və regional məsələlərdə ən fəal iştirak edən ölkələrdir. İki qardaş dövlətin müstəqil siyasət aparması qlobal güclər tərəfindən müqavimətə rast gəlsə də, liderlərimiz tutduqları mövqedən geri çəkilmirlər, üstəlik, türk dövlətləri ilə birlikdə güc nümayiş etdirirlər. Prezident İlham Əliyevin "Yerimiz türk dünyasıdır" mövqeyi, qardaş Türkiyənin BRİCS-ə üzv olmaq istəməsi bir çox ölkədə rahatsızlıqla izlənilsə də, dəfələrlə özünü təsdiq etmiş qətiyyətin qarşısında aciz görünürlər.

Prezident İlham Əliyev sonuncu andiçmə mərasimində yeni dünya düzənində türk dünyasının beynəlxalq əhəmiyyəti, hansı siyasi orbitdə ölkəmizin yer alacağı barədə demişdir: "Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz hətta cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayırıcı xətləri açıq-aydın görürük. Belə olan halda bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Bu sitatdan sonra qlobal güclərin rahatsızlığının səbəbi daha aydın başa düşülür. Prezidentin dediyi kimi, böyük geosiyasi məkan, təbii sərvətlər, qlobal nəqliyyat marşrutları, gənc əhali, hərbi güc və ən əhəmiyyətlisi eyni kökdən olan xalqların birliyidir Türk Dövlətləri Təşkilatı. Yəni bu təşkilatın yeni qlobal gücə çevrilməsi üçün lazım olan bütün zəruri şərtlər mövcuddur. Sadəcə olaraq, daha da təşkilatlanmaq və birgə səylərlə dünya birliyində haqq etdiyi layiqli yeri tutmaq lazımdır ki, buna da heç kimin şübhəsi yoxdur.

Hazırda dünyada gedən geosiyasi mübarizədə dünya əhəmiyyətli nəqliyyat marşrutlarına nəzarət əsas faktora çevrilib. Xoşbəxtlikdən bu yollara nəzarət də türk dünyasına məxsusdur. Orta dəhliz Çinin "Bir kəmər, bir yol" layihəsinin davamı olsa da, türk nəqliyyat marşrutudur. Çindən sonra bu dəhlizin keçdiyi ölkələr, Gürcüstan istisna olmaqla, hamısı türk dövlətləridir. Üstəlik, dünya üçün böyük əhəmiyyət daşıyacaq İraqdan başlanıb Avropaya gedəcək marşrutda da söz sahibi türk ölkəsi - Türkiyədir. Bunlar isə o deməkdir ki, dünyadakı güc sahibləri gec-tez möhtəşəm türk dünyasını qəbul etməli olacaqlar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan-Türkiyə qardaşlığı region üçün də faydalıdır

**"Prezident İlham Əliyevin Türkiyə səfəri özündə kifayət qədər ciddi və məqsədyönlü xarakter daşıyan bir sıra addımları ehtiva edir. Səfər çərçivəsində Azərbaycan və Türkiyə prezidentlərinin geniş və əhatəli müzakirə aparmaları bölgədəki vəziyyətlə bağlı zərurətdən irəli gəlir. Nəzərə almaq lazımdır ki, Azərbaycanın geosiyasi məsələlərlə bağlı ən çox məsləhətləşdiyi ölkə Türkiyədir. Həmçinin qardaşlıq münasibətlərimiz o səviyyədədir ki, bir-birimizlə məsləhətləşmədən heç bir addım atmırıq".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat qeyd edib ki, bölgədə situasiya elə formalaşıb ki, mövcud şərtlərə görə davranmaq olduqca çətinləşib: "İsrail-Həmas müharibəsi, həm də Rusiya-Ukrayna müharibəsi yeni fazaya daxil olub. Bu, olduqca böyük təhlükələr ortaya qoyur. Xüsusilə də Ukraynanın daha uzaqmənzilli raket və təyyarələrdən istifadə edərək Rusiya ərazisinə hücuma keçməsi müharibənin miqyasının genişlənəcəyindən xəbər verir. Belə bir vəziyyətdə Azərbaycan və Türkiyə təhlükəsizlikləri üçün zəruri addımlar atmalıdırlar".

Deputat bildirib ki, Azərbaycanla Türkiyə arasında Türk Dövlətləri Təşkilatının yeni formatda daha aktiv rol ala biləcək səviyyəyə gətirilməsi məsələsi də gündəmdədir: "Prezidentlər arasında aparılan müzakirələr ciddi əhəmiyyət kəsb edir. Bu görüş Azərbaycanla Türkiyə arasında münasibətlərin bölgənin siyasi həyatına nə qədər təsir edəcəyini göstərir. Təbii ki, müzakirələr zamanı hər iki dövlətin maraqları nəzərə alınır".

Fazil Mustafa həmçinin söyləyib ki, növbəti ay Rəcəb Tayyib Ərdoğanın da Azərbaycana səfəri gözlənilir: "Yeni təhlükəsizliyin təminatı və tərəfdaşlığın inkişafı üçün bu görüşlər davamlı xarakter daşıyır. Bu həm də müəyyən qədər beynəlxalq situasiyadan asılıdır".

Deputat səfər çərçivəsində Azərbaycanla Ermənistan arasında sülh danışıqları məsələsinin də geniş müzakirə olunduğu ehtimalını diqqətə çatdırıb: "Nəzərə almaq lazımdır ki, bu məsələ həm də Türkiyəni ciddi şəkildə düşündürür. Çünki Ermənistan yalnız Azərbaycanla deyil, paralel olaraq Türkiyə ilə də münasibətlərini qaydaya salmalıdır. Əgər İrəvan bölgədə mövcudluğunu normal şəkildə sürdürmək istəyirsə, hər iki dövlətlə əlaqələrini qaydaya salmalıdır. Bu vəziyyətə görə sülh istiqamətində trayektoriyanın müzakirə olunması zərurətdən irəli gəlir. Çox ehtimal ki, bu məsələlər hələ bir müddət gündəmdə olacaq və geniş şəkildə müzakirə olunacaq".

Deputat yekunda vurğulayıb ki, Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri zaman keçdikcə daha da möhkəmlənir, uğurla inkişaf edir: "Bu gün Türkiyə-Azərbaycan birgə fəaliyyəti xüsusilə region üçün önəmli amilə çevrilib".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***




# Xoşniyyətli sarsılmaz türk birliyi

**Dünya yeni bir tarixi mərhələyə qədəm qoyub. Son onilliklərdə planetimizdə həm siyasi, həm sosial-iqtisadi, həm də mədəni-mənəvi cəhətdən özlərini üstün saymağa çalışan əsas dünya güclərinin davranışlarının faciəvi fəsadları artıq göz önündədir. Həmin fəsadlar böyüdükcə ölkələrin öz milli maraqlarını qoruması, kənar təhdidləri dəf edərək müstəqil həyatını qura bilməsi, vətəndaşlarının rifah və xoşbəxtliyinə nail olması üçün alternativ yolların, birlik formatlarının axtarışı da sürətlənir.**

Bu, təkcə ayrı-ayrılıqda ölkələrin deyil, ümumilikdə bəşəriyyətin ehtiyacıdır. Dünyada yaşayan bütün insanların bu gün səmimi şəkildə sülhə, əmin-amanlığa, əməkdaşlığa, davamlı inkişafa xidmət edən, bunu qarşısına məqsəd qoyan birliklərə, ali məqsədlərə töhfə verən liderlərə ehtiyacı var.

### Bizim ailəmiz türk dünyasıdır

Son illər türkdilli ölkələrin bir-birinə yaxınlaşması, Türk Dövlətləri Təşkilatının güclənərək proseslərə təsir imkanlarını artırması bu qurumda bir araya gəlmiş dövlətlərin böyük uğurudur. Sözügedən təşkilatın qurulmasında, addım-addım inkişafında, güc mərkəzinə çevrilməsində Azərbaycanın tarixi rolu çox böyükdür. Bu da ölkəmizin gələcəyə strateji baxışından, xarici siyasət prioritetlərindən irəli gəlir. Belə ki, dövlətimizin xarici siyasət prioritetlərinin müəyyən edilməsi zamanı türk dünyasının gücləndirilməsi, türk dövlətləri ilə əlaqələrin inkişafı prioritet istiqamət kimi müəyyənləşib.

Bu ilin fevralında xalqımızın yekdil səsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev andiçmə mərasimindəki çıxışı zamanı da bəyan etdi ki, ailəmiz türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur.

Azərbaycan Prezidentinin bu mövqeyi ölkəmizin türk dünyası ilə bağlı siyasətinin əsas formuludur. Cənab İlham Əliyev bunu iyunun 6-da Bakıda səfərdə olan Türk Dövlətləri Parlament Assambleyasının nümayəndə heyəti ilə görüşündə də bir daha diqqətə çatdırdı.

### TÜRKPA-nın plenar iclası birliyimizə töhfə verəcək

Qeyd edək ki, nümayəndə heyətində TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er, Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş, Qazaxıstan Parlamenti Məclisinin Sədri Yerlan Koşanov, Qırğızıstan Joqorku Keneşinin Sədri Nurlanbek Şakiyev, Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri Zorlu Tören və Macarıstan Milli Assambleyası Sədrinin müavini Marta Matrai təmsil olunurdu. Nümayəndə heyətinin ölkəmizə səfəri iyunun 6-da TÜRKPA-nın Azərbaycan Milli Məclisində keçirilən "Türk dünyası üçün yaşıl üfüqlər: yaşıl gündəliyə nail olunmasında parlamentlərin rolu" mövzusunda 13-cü plenar iclası ilə bağlı idi. Azərbaycanın belə mühüm tədbirlərə evsahibliyi etməsi də ölkəmizin türk dünyasının birliyinə verdiyi töhfələrə daha bir nümunədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, belə toplantılar bir qayda olaraq türk dünyasının birliyinin təzahürü olur və bu baxımdan Bakı toplantısının da istisna təşkil etməyəcəyinə yüksək əminlik var.

### Ardıcıl təşəbbüslər

Azərbaycanın türk dünyasının birliyinə xidmət edən təşəbbüsləri ardıcıl xarakter daşıyır. TÜRKPA-nın Bakıda keçirilən plenar iclasının ardınca gələn ay Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü də keçiriləcək. Belə bir Zirvə görüşünün keçirilməsi Azərbaycan Respublikası Prezidentinin təşəbbüsüdür. Belə təşəbbüslər türk dövlətləri arasında davamlı təmaslara, birliyimizin gücləndirilməsinə müsbət təsir göstərir.

Şuşada keçiriləcək Zirvə görüşünün mövzusu da mühüm bir məsələyə - nəqliyyat və iqlim məsələlərinə həsr olunacaq. Bu, təbii ki, təsadüfi deyil. Ölkələr arasında nəqliyyat əlaqələrinin qurulması və genişləndirilməsi türk dünyasının birləşməsi ilə sıx bağlı olan prosesdir. "Orta dəhlizin fəaliyyətə başlaması və yükdaşımaların artırılması göz önündə olan məsələlərdir. Burada Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələr birgə fəaliyyət göstərir. Mən hesab etdim ki, indiki zəmanədə Orta dəhlizin potensialına dünyada daha böyük ehtiyac var. Biz bu mövzu ilə bağlı, gələcək addımlarımızla bağlı geniş fikir mübadiləsi aparmalıyıq" - Azərbaycan Prezidenti TÜRKPA nümayəndə heyəti ilə görüşündə mövzunun əhəmiyyətini diqqətə çatdırdı.

İqlim məsələlərinə gəlincə isə bu da 2024-cü ildə COP29 tədbirinə evsahibliyi edəcək ölkə kimi Azərbaycanın gündəliyində duran əsas məsələlərdəndir. Belə bir qlobal tədbirə hazırlıq dövründə iqlim məsələlərinin qardaş ölkələrlə müzakirəsi tədbirin uğuruna fayda verəcək.

Zirvə görüşünün məhz Şuşa şəhərində keçirilməsi çox böyük mənəvi dəyərə malikdir. Qələbəmizin simvolu olan Şuşa şəhəri türk dünyasının da birlik rəmzinə çevrilməkdədir. Dörd ilə yaxındır ki, işğaldan azad edilərək özünün yeni həyatına qədəm qoymuş Şuşada çox sürətlə quruculuq-bərpa işləri aparılır. Bu dövr ərzində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin liderlərinin Şuşaya səfərləri olub. Azərbaycan azad yurdlarımızın dirçəlişində də türk dövlətlərinin qardaşlıq köməyini hiss edir. İşğaldan azad edilmiş torpaqlarda qardaş türk ölkələrindən Özbəkistan və Qazaxıstanın təşəbbüsü, maliyyə dəstəyi ilə artıq bir məktəb və bir incəsənət mərkəzi inşa edilərək fəaliyyətə başlayıb. Bu yaxınlarda isə Azərbaycan Prezidenti Qırğızıstanın dövlət başçısı ilə birgə Ağdam rayonunda məktəb binasının təməlini qoydu. Cəbrayıl rayonunda da Macarıstanın maliyyə dəstəyi ilə məktəb inşa ediləcək. Həmçinin azad edilmiş ərazilərdə bu gün geniş yol-nəqliyyat infrastrukturu yaradılır və bu nəhəng layihələrin icrasında Türkiyədən olan şirkətlər fəal iştirak edirlər. Bütün bunlar türk ölkələrinin birliyinin, doğmalığının azad yurdlarımızdakı əbədi nişanələri olacaq.

### Yeni formalaşan güc mərkəzi

"Türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir, böyük coğrafiyanı əhatə edir. Nəqliyyat yolları, enerji resursları, insan kapitalı, artan əhali, demoqrafik vəziyyətin müsbət olması - bunlar böyük bir güc potensialıdır. Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək, əminəm ki, bu olacaq, biz bunu görürük. Hər bir toplantı, hər bir Zirvə görüşü bizim məqsədlərimizə doğru atılan növbəti addım olur" - bu, Azərbaycan Prezidentinin sözləridir. Həqiqətən, türk dünyasının birliyi istiqamətində aparılan fəaliyyət Türk Dövlətləri Təşkilatını dünya miqyasında böyük bir güc mərkəzinə çevirməkdədir. Bunu şərtləndirən digər amillərlə yanaşı, bir əsas səbəb də hazırda dünyadakı mövcud güc mərkəzlərinin böhran içində olması, hərəsinin öz böhran çərçivəsində qapanıb qalmasıdır.

Türk Dövlətləri Təşkilatında bir araya gələn qardaş ölkələrin potensialı isə bunun əvəzində getdikcə genişlənir. Bu gün türk dünyası çox geniş coğrafiyanı, getdikcə artan əhalini və əhali tərkibində gəncliyin üstünlüyünü, zəngin təbii sərvətləri, şaxələnmiş nəqliyyat yollarını, türkdilli ölkələr arasında tarixi-mənəvi bağları birləşdirən böyük bir gücdür. Ona görə bu birlik bütün başqa birliklərdən daha qüvvətlidir. Birləşməyimizin etnik, mədəni köklər üzərində olduğunu qeyd edən Prezident İlham Əliyev praktik addımlarla bu birliyin gücləndirilməsi zərurətini vurğulayıb: "Bu gün nəqliyyat, energetika, ticarət, mədəniyyət sahələrində və digər sahələrdə çox geniş əlaqələr var. Bu gün hərbi, hərbi-texniki sahə və təhlükəsizliklə bağlı olan digər sahələr də mütləq diqqət mərkəzində olmalıdır. Çünki dünyanın müxtəlif yerlərində gedən proseslər göstərir ki, beynəlxalq hüquq normaları inkar edilir, işləmir".

Əfsuslar ki, bu, müasir dünyamızın acı reallığıdır və Azərbaycan təxminən 30 ilə yaxın müddət ərzində bu reallıqdan əziyyət çəkən ölkələrdən olmuşdu. Guya Qarabağ probleminin həlli məqsədilə yaradılmış Minsk qrupu 28 il öz missiyasını yerinə yetirmək əvəzinə münaqişənin Ermənistanın xeyrinə dondurulması məqsədinə xidmət etmişdir. BMT-nin işğalçı qoşunların Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması haqqında 4 qətnaməsi havadan asılı qalmışdı. Azərbaycan öz haqqını, ərazi bütövlüyünü yalnız döyüş meydanında, güc yolu ilə və beynəlxalq hüquq çərçivəsində həll edə bildi. Bu həqiqət bir daha təsdiqini tapdı ki, öz haqqını müdafiə edə bilməyin üçün güclü olmalısan.

### Gücümüz birliyimizdədir

Vətən müharibəsi günlərində Türkiyənin Azərbaycana verdiyi birmənalı dəstək, qardaş ölkənin hər an yanımızda olması, bunun cəmiyyətimizdə yaratdığı ruh yüksəkliyi, hərbi əməliyyatlar gedişində Ermənistanın havadarı mövqeyində ölkəmizə təzyiq göstərən, hətta hədələyən bir çox dövlətin bundan çıxardığı nəticə birliyimizin nə qədər böyük təsir gücü yaratdığını nümayiş etdirdi.

Bu qüvvənin nəticəsi Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır, Ermənistan hakimiyyətinin son illərdə baş verənlərdən çıxardığı dərsdir, bunun bir nümunəsi kimi Qazaxın dörd kəndinin bir güllə belə atılmadan geri qaytarılması, sərhədlərin delimitasiyası və demarkasiyasının başlanması, məsələlərin arada heç bir vasitəçi olmadan danışıqlar yolu ilə həllinin mümkünlüyünü bütün dünya ictimaiyyətinin görməsidir.

Prezident İlham Əliyev hazırda Ermənistan və Azərbaycan arasındakı proseslərin açıq qalan məqamlarına münasibətdə də qətidir. Bunlardan biri Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının öz əksini tapdığı konstitusiyasıdır. Digər məsələ isə Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi iddialarına son qoyması tələbini yerinə yetirməsidir. Bundan başqa, Azərbaycan rəsmi İrəvana Minsk qrupunun ləğvi barədə ATƏT-ə birgə müraciət təklifi də verib. Azərbaycan Prezidenti hazırda fəaliyyət göstərməyən Minsk qrupuna artıq heç bir ehtiyacın olmadığını bildirir: "Biz onun fəaliyyət göstərməsinə de-fakto imkan verməyəcəyik. Qaldı ki, de-yure - hüquqi cəhətdən bu, ləğv edilsin və bu, Ermənistanın nə qədər səmimi olmasından xəbər verəcək. Əgər Ermənistan Minsk qrupunun saxlanmasına üstünlük versə, deməli, onların bizə qarşı ərazi iddiaları davam edir".

Ermənistanın bundan sonra da öz səhvlərindən nəticə çıxarmayıb işğalçı mövqeyinə davam etdirməsi, erməni cəmiyyətindəki revanşistlərin Azərbaycana qarşı hər hansı hərəkətə keçməyə cəhd göstərməsi bu ölkənin sonu demək olar. Rəsmi İrəvan bundan sonra artıq sağlam düşüncə ilə hərəkət edib qonşularla münasibətləri nizama salmaq, regionun inkişaf imkanlarından başqaları ilə birgə faydalanmaq, o cümlədən türk dünyasının birliyinin böyük bir coğrafiyada hər kəs üçün yaratdığı inkişaf potensialından bəhrələnmək barədə düşünməlidir.

### Türk dünyası təhdid mənbəyi deyil

Türk Dövlətləri Təşkilatı hazırda böhran keçirən bir çox əməkdaşlıq formatından fərqli olaraq heç kimə qarşı deyil, kiminsə maraqlarının tapdanmasını hədəf götürməyib, əksinə, bu qurumun məramı hər kəsin özünü xoşbəxt hiss edə biləcəyi sülh və rifah mühitinin təmin olunmasıdır: "Biz heç kimə qarşı heç bir hərəkət etmirik. Biz heç kim üçün təhdid mənbəyi deyilik və heç vaxt olmayacağıq. Öz haqqımızı tələb edirik, qoruyuruq, bir-birimizi dəstəkləyirik" - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sözləri təşkilatın məram və məqsədlərini aydın xarakterizə edir.

2021-ci ildə Şuşa Bəyannaməsinə imza ataraq münasibətləri ən yüksək müttəfiqlik səviyyəsində rəsmiləşdirən Azərbaycan və Türkiyənin hər zaman bütün məsələlərdə bir-birinin yanında olması, istənilən zərurət anında bir-birinə dəstək verməsi bütün türk dünyası üçün bir örnəkdir. Azərbaycan Prezidenti bəyan etdi ki, bu birlik bütün türk dünyasında olmalıdır və ondan sonra heç kim bizim işimizə müdaxilə edə bilməz.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən tədbirlər, o cümlədən növbəti aya nəzərdə tutulan Şuşa Zirvə görüşü də bu istiqamətdə önəmli addım olacaq, həm türk dünyasının gücünü, birlik və bir-birinə dəstək əzmini, həm də xoş niyyətini göstərəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Sarsılmaz qardaşlıq gündən-günə güclənir

## Azərbaycan və Türkiyə prezidentlərinin qarşılıqlı səfərləri strateji tərəfdaşlığı daha da möhkəmləndirir

**"Azərbaycanla Türkiyə qardaş ölkələr olaraq bir-birinin sevincini və kədərini bölüşür, xoş və çətin günlərdə həmrəylik nümayiş etdirirlər. Dövlət başçılarının qardaşlıq münasibətləri bu gün xalqlarımız arasındakı əlaqələrdə də özünü göstərir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, tarixin heç bir dönəmində Türkiyə-Azərbaycan münasibətləri indiki qədər yüksək səviyyədə olmayıb.

Prezident İlham Əliyevin iyunun 10-da Türkiyəyə işgüzar səfəri də dostluq və qardaşlığımızın növbəti nümunəsidir. Səfər zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, dostluq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıblar. Görüşdə ölkələrimiz arasında enerji, nəqliyyat, iqtisadiyyat, ticarət əlaqələrinin genişləndirilməsi, müdafiə, hərbi sənaye və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının genişləndirilməsi xüsusilə vurğulanıb, "Orta dəhliz"in inkişafı ilə əlaqədar iki ölkənin birgə həyata keçirdiyi fəaliyyətin önəmi qeyd edilib. Həmçinin Türk Dövlətləri Təşkilatının və ölkələr arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyəti bir daha vurğulanıb. "Prezidentlərin görüşündə regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparılıb. Bütün bunlar qardaşlıq münasibətlərimizin ən yüksək səviyyədə olduğunu bir daha təsdiqləyir. Türkiyə və Azərbaycan xarici siyasət sahəsində bundan sonra da vahid mövqedən çıxış edəcək. Bizim xarici siyasətlə bağlı apardığımız birgə fəaliyyət bölgə üçün də çox böyük önəm daşıyır", - deyə S.Fətəliyeva əlavə edib.

Prezident seçkilərindən sonra İlham Əliyevin ilk rəsmi səfərini də Türkiyəyə etdiyini xatırladan komitə sədrinin müavini bildirib ki, bu faktın özü rəmzi məna daşıyır. Bu, Azərbaycan-Türkiyə münasibətlərinin dostluq və qardaşlıq prinsipinə əsaslandığının bir daha nümayişi idi. Həmin səfər zamanı da dövlət başçılarının görüşündə Şuşa Bəyannaməsinin ölkələrimiz arasındakı münasibətləri müttəfiqlik səviyyəsinə qaldırdığı qeyd olunub. Müdafiə sənayesi, hərbi, energetika, təhsil və digər sahələrdə əməkdaşlığın, Orta dəhliz məsələsində Azərbaycan ilə Türkiyə işbirliyinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılmasının, həmçinin Naxçıvanda birgə layihələr və sonuncu səfər zamanı imzalanmış sənədlərin, o cümlədən Naxçıvanın qaz təchizatı istiqamətində layihələrin, Qars-Naxçıvan dəmir yolunun tikilməsinin mühüm əhəmiyyəti vurğulanmışdı.

Sevinc Fətəliyeva qeyd edib ki, Azərbaycan torpaqlarının 2020-ci ildə erməni qəsbkarlarından azad edilməsi zamanı Türkiyə dövlətinin və onun Prezidentinin Azərbaycana göstərdiyi mənəvi və diplomatik dəstək sözün həqiqi mənasında təmənnasız qardaşlığın təntənəsi idi: "Vətən müharibəsi dövründə Türkiyənin dövlət strukturları, xalqı Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. İqtidar və müxalifət partiyalarını təmsil etməsindən asılı olmayaraq, bütün siyasi qüvvələr də Azərbaycanın yanında oldu. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Türkiyənin siyasi dəstəyi sayəsində bir çox dövlətlər məsələyə qarışa bilmədilər. Bu amil bizim qələbə qazanmağımıza çox böyük təsir göstərdi. Bütün dünya Azərbaycan-Türkiyə qardaşlığının bir daha şahidi oldu. Eyni zamanda ötən ilin fevral ayında Türkiyədə güclü zəlzələ baş verdikdə Azərbaycan dövləti gözləmədən öz xilasedici missiyasını təbii fəlakət bölgəsinə göndərdi, vətəndaşlarımız yardımlarını əsirgəmədilər. Bu gün də Kahramanmaraş vilayətində bərpa işləri üçün ölkəmiz öz töhfəsini verir".

Komitə sədrinin müavini hesab edir ki, bu faktlar bir reallığı əks etdirir - dünyada Azərbaycan və Türkiyə qədər sıx qardaşlıq bağları olan ölkələr yoxdur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Qardaşlar görüşdü"

## Prezident İlham Əliyevin Ankaraya səfəri Türkiyə mediasının əsas gündəm mövzusu oldu

**Azərbaycan-Türkiyə əlaqələrinin mövcud səviyyəsi qardaşlığın, dostluğun rəmzi olaraq iki dövlətin həmrəyliyi və birliyinin yüksək təzahürü sayılır. Strateji tərəfdaşlıq səviyyəsində olan münasibətlərin qorunması və inkişafı xalqlarımızın sifarişidir.**

Azərbaycan-Türkiyə əlaqələrinin siyasi, iqtisadi və digər bütün sahələr üzrə dinamik artımda davam etməsi böyük coğrafi məkanda proseslərin gedişinə təsir göstərir. Təbii ki, münasibətlərin bu qaydada formalaşmasında liderlərin də xüsusi rolu var.

İyunun 10-da Azərbaycan Prezidenti İlham Əliyev türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfərə gəlib. Səfər qardaş ölkənin bir neçə yüz minlik tirajlı qəzetlərinin əsas manşet mövzusuna çevrilib. Teleşirkətlər isə həmin hadisəni canlı yayımlar vasitəsilə izləyicilərə təqdim ediblər. Onlardan bəzilərini oxucuların diqqətinə çatdırırıq.

"Türkiye" qəzeti "Ortaq dəhliz, ortaq qazanc" başlıqlı xəbəri manşetdən verib. Qeyd edilib ki, görüşdə ölkələr arasında enerji, nəqliyyat, iqtisadiyyat, ticarət əlaqələrinin genişləndirilməsi, müdafiə, hərbi sənaye və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. O da əlavə edilib ki, görüşdə Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının genişləndirilməsi xüsusilə qeyd edilib, Orta dəhlizin inkişafı ilə əlaqədar iki ölkənin birgə həyata keçirdiyi fəaliyyətin önəmi vurğulanıb.

Qardaş ölkənin ən tirajlı qəzetlərindən biri sayılan "Hürriyet" isə "Əliyevlə görüşdü" başlıqlı xəbərində Azərbaycan Prezidentinin səfərinə geniş yer ayırıb. Bildirilib ki, siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə ikitərəfli əməkdaşlığın bundan sonra da çevik inkişafı Azərbaycan və Türkiyəyə yeni uğurlar vəd edir.

Türkiyənin ən çox oxunan qəzetlərindən "Milliyet" isə "Əliyevlə sürpriz görüş" başlıqlı xəbəri manşetdən təqdim edib. Xüsusi olaraq qeyd edilib ki, Azərbaycan Türkiyə ilə qardaş ölkədir və bu qardaşlığı heç kim sarsıda bilməz. Bölgədə ən pozitiv, hamının marağına uyğun olan iqtisadi, siyasi, nəqliyyatla bağlı bütün layihələr Azərbaycan və Türkiyə ilə bağlıdır.

"Milat" qəzetinin "Güclü qardaşlıq" başlıqlı xəbərində vurğulanır ki, Can Azərbaycanla əlaqələr ən yüksək zirvədədir. Xüsusilə iqtisadi sahədə əməkdaşlıq bölgə üçün də çox böyük rol oynayır. Türkiyə-Azərbaycan birliyi bölgədə sabitlik yaradan amildir.

"Türkgün" qəzetinin "Qardaşlar görüşdü" başlıqlı xəbərində isə qeyd edilir ki, görüşdə verilən mesajlar iki ölkə arasında qardaşlığın sarsılmaz və əbədi olduğunu növbəti dəfə sübut etdi. Azərbaycanla Türkiyənin bundan sonra da daim bir-birinin yanında olacağı növbəti dəfə göstərildi: "Dostumuzu birlikdə dost, düşmənimizi də birlikdə düşmən görürük".

Qəzetlərdən "Akşam"ın "Qəzzə üçün əl-ələ", "Diriliş postası"nın "Qardaş Ankarada", "Yeni akit"in "Əliyev Külliyədə", "Yeni Birlik"in "Əliyevlə Ərdoğan görüşdü", "Yeni söz"ün "Əliyevə Ankarada isti qarşılama" kimi başlıqlarında bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı nümunəvidir və belə hallar iki dövləti bir-birinə daha sıx bağlayır.




Televiziya kanallarından "TRT Haber" "Ərdoğan-Əliyev görüşü" başlıqlı xəbər yayımlayıb. Bildirilib ki, Azərbaycan dövlət başçısının birgünlük səfəri çərçivəsində Rəcəb Tayyib Ərdoğan ilə istər təkbətək, istərsə də geniş tərkibdə görüşlərdə iqtisadi, ticari, mədəniyyət, təhsil və xarici siyasətlə əlaqədar məsələlər geniş şəkildə dəyərləndirildi.

"Haber Global"ın "Əliyevdən Ankaraya işgüzar səfər" başlıqlı sujetində vurğulanır ki, Azərbaycanla Türkiyə aralarında münasibətlərin nə dərəcədə yüksək səviyyədə qurulduğunu, tərəflərin mühüm əhəmiyyət kəsb edən maraqlar ətrafında hər zaman bir-birini müdafiə etməyə hazır olduqlarını həmişə göstərib.

Televiziya kanallarından "TGRTHaber"in "Əliyevdən Türkiyəyə çalışma ziyarəti", "NTV"nin "İki lider hansı mövzuda müzakirələr apardı", xəbər agentliklərindən "Ankara masası"nın "Paytaxtda qardaş görüşü", "Gazette"nin "Başqan Ərdoğan Əliyevlə görüşdü", "Sanalbasın"ın "Külliyədə kritik görüş", "Haber 7"nin "Qardaş Türkiyədə" xəbərlərində də İlham Əliyevin Ankaraya səfəri xüsusi olaraq qeyd edilib. Bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu və strateji müttəfiqliyi sarsılmaz və əbədidir. Azərbaycan Prezidenti isə Türkiyənin ən yaxın və səmimi dostudur.

Göründüyü kimi, hər iki liderin qarşılıqlı səfərləri ölkələr arasında əlaqələri qardaşlığın və qarşılıqlı dəstəyin daha yüksək səviyyəsinə çıxardır. Başqa sözlə, Azərbaycan-Türkiyə dostluğu, strateji tərəfdaşlıq münasibətləri dünya ölkələrinə model, örnək ola bilər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*





## “Böyük qayıdış” proqramı sürətlə icra olunur





◆ Qarabağdan reportaj

# “İlham Əliyev Xocalıda cənnət yaradıb”

**Xocalı küçələri başdan-başa Azərbaycan bayrağına bürünüb...**

**Hər addımda Zəfərin, Böyük qayıdışın şanlı rəmzlərini, qürur doğuran izlərini görürük.**

**Amma onu da unutmuruq ki, ayağımızı basdığımız torpağın hər qarışında günahsız körpələrin, qız-gəlinlərin, qocaların qan izi olan şəhərdəyik...**

**Bir gecədə yandırılaraq, insanlığa sığmayan cinayətin qurbanına çevrilən məkandayıq...**

**Atasız-anasız qalan körpələrin, ailə üzvlərini itirənlərin, qollarında əzizləri can verən xocalılıların yurd yerindəyik...**



Xəyalları gerçəkləşən Xocalı sakinləri yurda qayıdışın xoşbəxtliyini bölüşürlər





*"Dövlət başçımızla Xocalıda görüşümüz həyatımızın ən yaddaqalan günü oldu. Prezidentimizin Xocalıda ucaltdığı Zəfər bayrağını hər görəndə ordumuza, bu ordunu quran və onu qələbəyə aparan Ali Baş Komandana min alqış deyirəm. Düşməndən qisasımızı alan sərkərdə Qarabağı cənnətə, gülüstana döndərməklə bu yurdun əsl sahibi olduğunu bütün dünyaya sübut etdi".*

32 il öncə yandırılıb külü göylərə sovrulan şəhər indi tam başqa mənzərə ilə canlanır qarşımızda. Şanlı Zəfərin memarı İlham Əliyev cəmi 8 aya burada elə möhtəşəm şəhər yaradıb ki...

İllər öncə soyuq fevral gecəsində ayaqyalın, başıaçıq qaçıb canlarını salamat qurtaran xocalılılarla yurda qayıdış xoşbəxtliklərini bölüşürük...

## "Xocalını görəndə gözlərimə inanmadım"

Xocalı adı çəkiləndə illərlə ürəyimiz qan ağladı. Sağalmaz yaraya çevrilmişdi bu ad... 30 il dünyadan "Xocalıya ədalət!" istədik. Harayımıza səs verən az oldu. Dünya erməni vəhşiliklərini, azərbaycanlıların Xocalıda yaşadıqları dəhşətləri görməzdən gəldi. Bir xristian uşağının burnu qanayanda dünyanı ayağa qaldıran böyük güclər, beynəlxalq təşkilatlar susqun qaldılar.

Təbii ki, Azərbaycan üçün qisas günü var idi. 2020-ci il Vətən müharibəsindəki Zəfər və 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirlərindən sonra Qarabağ və Şərqi Zəngəzur, o cümlədən Xocalı da azadlığına qovuşdu. Erməni vandallarının izi torpaqlarımızdan silindi. Bu gün isə üçrəngli bayrağımızın qürurla dalğalandığı yerdir Xocalı...

Artıq Xocalı sakinləri yurda qayıdırlar. Doğma elinə-obasına ilk dönənlərdən biri də Elmira Allahverdiyevadır. 32 ildən sonra uşaqlığını, gəncliyini, bəlkə də ömrünün ən gözəl illərini qoyub gəldiyi yurduna qovuşub.

*( Əvvəli qəzetin 10 iyun nömrəsində)*

Bizi görən kimi evinə dəvət edir və sevinc göz yaşları ilə danışmağa başlayır: "Xocalının bu gözəlliyini görəndə gözlərimə inana bilmədim. Mənə elə gəldi ki, Xocalıdan çıxdığımız bu illərdə burada möcüzə baş verib. Səkkiz ayda belə bir şəhəri yenidən tikib, bu cür gözəllik yaratmağın mümkün olacağını heç ağlımızdan belə keçirə bilməzdik. İllərlə Xocalının həsrəti ilə yaşadıq. Deyirdik ki, kaş Xocalıya qayıda biləк, çadır qurub quru torpağın üstündə yatsaq da, şikayətlənmərik. Tanrı səsimizi eşitdi, dualarımızı qəbul etdi. Xocalıda öz evimdəyəm. Hər səhər açılanda, hər yeni gün doğanda Xocalını düşmən əsarətindən qurtaran, bizi yenidən ev sahibi edən Prezidentimizə dualar edirəm".

Elmira Allahverdiyeva deyir ki, illərdir qaçqınlıq həyatı ilə yanaşı, məğlubiyyətin, gücsüzlüyün də əzabını çəkiblər. Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Qarabağı xilas etməklə üstümüzdən məğlub xalq ləkəsini silib, bizi müzəffər xalq kimi dünyaya tanıtdı. Ermənilərin qanla, qırğınla aldığı Xocalını siyasətlə geri qaytardı.

"Amma 32 il öncə baş verənləri xatırlayanda az qalıram dəli olam. Tank var idi, yanacağı yox idi. Əsgərin avtomatı var idi, atmağa gülləsi yox idi. Azərbaycan müstəqilliyini elan etsə də, rəhbəri yox idi. Bütün bunlar Xocalının faciəsi ilə nəticələndi. Ardınca bütün Qarabağ işğal olundu... Bu faciənin acısını bütün xalqımız çəksə də, mən iki əzizini qurban verən ailələrdənəm. O gecə yoldaşım Novruz Allahverdiyev, oğlum Mahir şəhid oldular. Sinəmdə şəhid yarası var. Hələ də onları axtarıram. Gözüm yollarda qalıb".

Şanlı Zəfərimiz Elmira xanıma qol-qanad verib. Xocalının bu gününü görüb qürur duyur. Dörd ailə üzvü ilə birlikdə Xocalıya qayıdıblar. Evinin açarlarını Prezident İlham Əliyev təqdim edib: "Dövlət başçımızla Xocalıda görüşümüz həyatımızın ən yaddaqalan günü oldu. Yaradılan bu gözəl şəraitə görə dövlət başçısına minnətdaram. Prezidentimizin Xocalıda ucaltdığı Zəfər bayrağını hər görəndə ordumuza, bu ordunu quran və onu qələbəyə aparan Ali Baş Komandana min alqış deyirəm. Düşməndən qisasımızı alan sərkərdə Qarabağı cənnətə, gülüstana döndərməklə bu yurdun əsl sahibi olduğunu bütün dünyaya sübut etdi. Nə qədər ömrümüz var, o qədər də Prezidentimizə duaçı olacağıq. Allahın nəzəri həmişə üstündə olsun".



*"Prezidentimiz bizimlə görüşüb problemlərimizlə maraqlandı. Evlərimizin açarlarını özü təqdim etdi. Bu, dövlətimizin, Prezidentimizin şəhid ailələrinə, keçmiş məcburi köçkünlərə, qaçqınlara göstərdiyi diqqətin göstəricisidir. Dövlət başçısının indiyədək xocalılılara göstərdiyi xüsusi diqqətə görə ona çox minnətdar idik. İndi isə bizə bu dünyada cənnəti yaşatdığına görə ömür boyu borcluyuq".*

## "Bizə bu xoşbəxtliyi yaşadan İlham Əliyevə "yaşa, var ol" deyirik!

Digər həmsöhbətimiz Xocalı sakini Zülfi Muradov oldu. Zülfi kişi ömrünün ahıl çağlarını yaşayır. Bizi görcək fərəhlə evinə dəvət edir.

"Faciə, qan, qırğın görsək də, qaçqınlıq həyatı bizə çox şey öyrətdi. Bu da bir sınaqmış. Görünür, biz bu imtahandan keçməliymişik. İnsanlar bizə evlərinin qapısını açdı, son tikələrini bizimlə bölüşdü, dərdimizə ortaq oldular. Dərd paylaşanda azalar. Çox şükür ki, dərdə də, düşmənə də qalib gələ bildik. Yenə Xocalıda, öz yurdumuzdayıq. Açığını deyəcəyəm, biz bu gözəllikdə Xocalı qoyub getməmişdik...

Xocalı indi cənnətə bənzəyir. Bizi əhatə edən bu dağları, gurultu ilə axıb gedən Qarqar çayını tanımasaydım, deyərdim ki, bizi Xocalıya yox, başqa yerə qaytarıblar".

Zülfi kişi deyir ki, Xocalının ilk şəhidi qardaşı Zahid Muradov olub. Milli Ordunun ilk əsgərlərindən olan Zahid 1991-ci il sentyabrın 10-da gecə postda olarkən ermənilər tərəfindən snayperlə vurulub.

Zülfi Muradovun sözlərinə görə, mayın 28-də Xocalıya ilk dönən 20 ailənin hamısı şəhid ailəsidir: "Prezidentimiz bizimlə görüşüb problemlərimizlə maraqlandı. Evlərimizin açarlarını özü təqdim etdi. Bu, dövlətimizin, Prezidentimizin şəhid ailələrinə, keçmiş məcburi köçkünlərə, qaçqınlara göstərdiyi diqqətin göstəricisidir. Dövlət başçısının indiyədək xocalılılara göstərdiyi xüsusi diqqətə görə ona çox minnətdar idik. İndi isə bizə bu dünyada cənnəti yaşatdığına görə ömür boyu borcluyuq. Xocalıda, Qarabağda gedən abadlıq-quruculuq işləri dövlətimizin gücünü, qüdrətini bütün dünyaya göstərir. Biz də vətəndaş olaraq bu dövləti quran, onu dünyada tanıdan, regionun lider respublikası edən İlham Əliyevə "yaşa, var ol" deyirik!"

## "Nə qədər nəfəsim var, Xocalıda yaşayacağam"

Xocalı sakini, ehtiyatda olan polis polkovniki Müşfiq Aslanov da Xocalıya qayıdışın sevincini bölüşür. Prezident İlham Əliyevlə Xocalıda keçirilən görüşdə iştirak edən Müşfiq Aslanov deyir ki, dövlət başçısının nə qədər insansevər, qayğıkeş Prezident olduğuna bir daha bu görüşdə şahidlik edib:

"1968-ci ildə Xocalıda anadan olmuşam. 1990-1991-ci illərdə Əhaliyə Məişət Xidməti Kombinatında sürücü işləyirdim. Xocalı soyqırımından əvvəl Ağdama ərzaq dalınca getmişdik. Geri dönəndə bizi Əsgərandan buraxmadılar. Erməni silahlıları Xocalıdan Əsgərana gələn yolu bağlayıb ağır texnika ilə yolu kəsmişdilər. Mühasirədə qalan yerlərdən hər gün dəhşətli xəbərlər eşidirdik. Hakimiyyətsizlik idi, gücsüz idik. SSRİ hələ dağılmamışdı. İllərlə can qoyub qulluq etdiyimiz SSRİ silahlı qüvvələrinin silahları ilə bizi öldürüb torpaqlarımızdan zorla didərgin saldılar. Ermənilərə bir söz deyən olmurdu. Əksinə, bizi borclu çıxarırdılar. Bunun da yeganə səbəbi ölkəyə təsadüfi adamların rəhbərlik etməsi idi".

Xocalı faciəsi baş verəndə Müşfiq Aslanov Ağdamda olub. Həmin günü yadına salanda onu dəhşət bürüyür: "Faciə zamanı 13 yaşlı bacım Elnarə itkin düşdü. Hər yerdə onu axtarırdım. Allaha yalvarırdım ki, bir nəfər Elnarənin "öldü" xəbərini mənə deyəydi... Bu gün də Xocalıdan kütləvi məzarlıqlar tapılanda gözləyirəm ki, çağırıb deyəcəklər ki, bu cəsəd ona aiddir..."

1996-cı ildə hüquq-mühafizə orqanlarında işə qəbul olunan Müşfiq Aslanov çavuşluqdan polkovnik rütbəsinə qədər yüksəlib. 2023-cü ildə qüsursuz xidmətlə təqaüdə çıxıb. Tək istəyi Xocalını bir dəfə də olsa, görmək olub: "Çox şükür ki, ordumuzun qüdrəti, Prezidentimizin fəaliyyəti nəticəsində nəinki Xocalını görmək, bu gözəl məkanda yaşamaq da mənə nəsib oldu. Qürurluyam ki, mayın 28-də Xocalıya dönən ilk 20 ailənin biri də bizim ailədir. İllərin həsrətindən sonra Xocalını bu gözəllikdə görmək çox sevindiricidir. Nə qədər nəfəsim var, Xocalıda yaşayacağam. İllərdir həsrətini çəkdiyimiz Xocalını yenidən bizlərə qaytardığı üçün Prezidentimizə minnətdaram".



*"Çox şükür ki, ordumuzun qüdrəti, Prezidentimizin fəaliyyəti nəticəsində nəinki Xocalını görmək, bu gözəl məkanda yaşamaq da mənə nəsib oldu. Qürurluyam ki, mayın 28-də Xocalıya dönən ilk 20 ailənin biri də bizim ailədir. İllərin həsrətindən sonra Xocalını bu gözəllikdə görmək çox sevindiricidir. Nə qədər nəfəsim var, Xocalıda yaşayacağam. İllərdir həsrətini çəkdiyimiz Xocalını yenidən bizlərə qaytardığı üçün Prezidentimizə minnətdaram".*

## "Prezidentimiz ağlımıza gəlməyənləri, düşünə bilmədiklərimizi etdi"

"Xocalısız yaşadığımız bu illərdə əlim Allaha uzanılı qalmışdı. Dua edirdim, Yaradana yalvarırdım ki, bir möcüzə göstər, bir saatlıq gedim Xocalını görüm, sonra canımı al. Prezidentimiz ağlımıza gəlməyənləri, düşünə bilmədiklərimizi etdi. Qarabağı bizə, bizi də Xocalıya qaytardı. Ayaqyalın, başıaçıq çıxmışdıq Xocalıdan. Heç nəyimiz yox idi. Biz çıxanda düşmən Xocalıya od vurub odlamışdı. Xocalı yanırdı. Geri qayıdanda yanan Xocalının yerində gözəl, cənnətə bənzər şəhər gördük..."

Xocalıya qayıdan Ruzigar Əliyeva da həm kədərini, həm də sevincini bizimlə bölüşüb paylaşdıqca göz yaşlarına hakim ola bilmir:

"Yoldaşım Mirzə Milli Ordunun əsgərlərindən idi. Həmin gecə Yenikənd istiqamətində postda idi. Mirzə ilə qardaşı Elşəni ermənilər əsir götürmüşdülər. Əsgər olduğu üçün tətik çəkən barmağını kəsib, dişlərini kəlbətinlə çıxarıb bədənini siqaretlə dağ-dağ etmişdilər. Xocalı soyqırımı baş verəndən 20 gün sonra əsirlikdən azad edilib gələndə tanınmaz halda idi. Dili söz tutmurdu, danışa bilmirdi. Qaynanam ayağından tanıdı...".

Xocalı sakini deyir ki, qaçqınlıq həyatları da yüngül keçməyib, öncə Bakıya, orada yaşaya bilməyib sonra Naftalana köçüblər: "Deyirdik kaş Xocalını lentə çəkib bizə göstərən ola... Xocalını görüb bu dünyadan köçəydik. Çox şükür ki, göydə Allah, yerdə Prezidentimiz bizə bu xoşbəxtliyi yaşatdı. İndi Xocalıdayıq və çox xoşbəxtik. Yoldaşım xəstə olsa da, deyir ki, Xocalının havası, qələbəmiz mənə ağrı-acını unutdurur. Daha ölsək belə dərdsiz öləcəyik".

Söhbət əsnasında bəlli olur ki, Ruzigar Əliyevanın ailəsi mayın 29-da Xocalıya köçüb. Həyətə çatanda ilk nəzərinə çapran iki tut ağacı olub: "İlk dəfə həyətə girəndə tut ağacına sarılıb, hönkürüb ağladım. Bu tut ağacı xoşbəxt günlərimizə çox şahidlik edib. Mənə elə gəlirdi ki, biz geri dönəndə o da bizi görüb sevinirdi...

Bütün ailəmiz, övladlarım, Xocalıya dönən və hələ dönməyən xocalılılar adından da bizə bu xoşbəxtliyi yaşadan, bizi qurulu evlərə qaytarıb ev sahibi edən Prezident İlham Əliyevə minnətdarıq. Əgər Allah qismət etsə, Prezidentimizi yaxından görə bilsəm, deyəcəm ki, Allah bu uca dağlar qədər sizi uca etsin, saf sular qədər ömrünüz olsun!"



*"İlk dəfə həyətə girəndə tut ağacına sarılıb, hönkürüb ağladım. Bu tut ağacı xoşbəxt günlərimizə çox şahidlik edib. Mənə elə gəlirdi ki, biz geri dönəndə o da bizi görüb sevinirdi... Bütün ailəmiz, övladlarım, Xocalıya dönən və hələ dönməyən xocalılılar adından da bizə bu xoşbəxtliyi yaşadan, bizi qurulu evlərə qaytarıb ev sahibi edən Prezident İlham Əliyevə minnətdarıq. Əgər Allah qismət etsə, Prezidentimizi yaxından görə bilsəm, deyəcəm ki, Allah bu uca dağlar qədər sizi uca etsin, saf sular qədər ömrünüz olsun!"*

*...Xocalıda həyat qaynamağa başlayıb. 32 ildən sonra sakinlərinə qovuşan şəhər yenidən xoşbəxt günlərini yaşamağa başlayıb. Xocalı artıq xalqımızın qəlbində qara yara deyil. Şanlı Zəfərimiz həm də yaralarımızın məlhəmi olub.*

*Bu fəxarət, bu qürur hissi ilə Xocalını qarış-qarış gəzib tikinti-quruculuq işləri ilə tanış olur, yeni yaradılan infrastrukturlarla maraqlanırıq...*

*(ardı var)*

***Rəşad BAXŞƏLİYEV,***
***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

*Bakı-Xocalı-Bakı*






# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Makronun Avropa Parlamentində mövqeləri sarsılır

**"Avropa Parlamentində Fransa Prezidenti Emmanuel Makronun partiyası ötən dəfəkindən daha az səs topladı. Avropa Parlamentində rəhbər postların müəyyənləşdirilməsində hansı partiyaların çoxluq təşkil etməsi az rol oynamır. Amma söhbət Avropa Komissiyasındakı həlledici postlardan gedirsə, burada daha çox Almaniya ilə Fransa rəhbərliyinin istəkləri və öz aralarında əldə etdikləri anlaşma həlledici rola malikdir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Sahib Alıyev deyib. Deputat bildirib ki, Avropa Komissiyasının rəhbərliyində kimin olacağı müəyyən qədər bu seçkilərin nəticəsinə bağlıdır. Həlledici olan isə öz aralarındakı anlaşmalardır.

Deputatin sözlərinə görə, bu cür vəziyyət Fransada Prezident Makronun mövqelərini sarsıdır: "Buna görə də o, parlamenti buraxaraq növbədənkənar seçkilərə getmək qərarına gəldi. O, həmçinin özünəxas populistliklə bu seçkilərdə Marin Le Penə uduzacaqları halda vaxtından əvvəl prezidentlik postunu tərk edəcəyini də bildirir. Amma Fransa seçki reallığı elədir ki, indiki halda Le Penin Avropa Parlamentindəki uğurunun bu seçkilərdə təkrarlanma ehtimalı aşağıdır. Məhz aşağı olduğuna görə də Makron növbədənkənar seçkilər təyin etmək qərarına gəldi".

Deputat vurğulayıb ki, Fransada hansı siyasətçinin prezident seçilməsindən asılı olmayaraq, Azərbaycan regiondakı siyasətini yürütməkdə davam edəcək və kimsə bizim qarşımızı kəsə bilməz. Çünki Azərbaycanın həyata keçirdiyi siyasət beynəlxalq hüquqa dayanır və rəsmi Paris də necə yanaşacaqsa, ona uyğun reaksiya görəcək. Prezident İlham Əliyevin bununla bağlı bir açıqlaması da oldu: "Biz "dəymə mənə dəyməyim sənə" prinsipi ilə hərəkət edəcəyik".

Sahib Alıyev qeyd edib ki, Azərbaycan heç bir dövlətin daxili işlərinə qarışmır, heç bir dövlətə qarşı düşmənçilik siyasəti yeritmir. Fransa da daxil olmaqla, bütün dövlətlərdən eyni münasibəti gözləyir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Makronun partiyası siyasi səhnəni tərk edə bilər

**"Avropa Parlamentinə keçirilmiş seçkilərdə Fransada millətçi "Birlik Partiyası"nın qələbəsi və Fransa Milli Assambleyasının buraxılması bu ölkədə geosiyasi böhranın dərinləşməsindən xəbər verir. Bu, Fransa Prezidenti Emmanuel Makronun rəhbərlik etdiyi "Renaissance" partiyasının nüfuzunun xeyli zəiflədiyinin və siyasi səhnəni artıq tərk etmək vaxtının çatdığının göstəricisi hesab edilə bilər".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat qeyd edib ki, Makron ölkədə siyasi intriqaları gərginləşdirməklə qatı millətçiliyin, neofaşizmin ideoloji yayıcılarına fürsət yaradır. Bu isə Paris üçün ağır fəsadlara yol açır.

Deputatın sözlərinə görə, Fransa və ümumiyyətlə, Avropada millətçilərin populyarlıq qazanması və son illərdə neofaşizm, neonasizm meyillərinin güclənməsi başqa xalqların və millətlərin Avropa strukturlarında, siyasi idarəetmədə yüksək post tutmalarından yaranan qıcıq, kin və nifrətlə bağlıdır: "Onlar Avropanın siyasi-iqtisadi, ictimai və sosial idarəetmə institutlarının yalnız "ali irq"in üzvləri üçün nəzərdə tutulduğunu düşünür, başqa millətlərə aşağı təbəqələr kimi yanaşırlar. Ultraqüvvələrin siyasi səhnədə daha ön plana çıxmasının əsas səbəblərindən biri də Rusiya-Ukrayna müharibəsinin doğurduğu acı nəticələr və miqrasiyanın artması, kəskin enerji böhranı, regionda həyat şəraitinin çətinləşməsi və s. meyillərlə də bağlıdır".

Aydın Hüseynov söyləyib ki, Fransa və digər Avropa ölkələrində millətçi partiyaların seçkilərdə qələbə qazanmaları artıq Avropa dəyərləri, demokratiya, insan haqları kimi prinsiplərin də kəskin şəkildə zədələnməsinə yol açacaq: "Avropa Şurası, Avropa Parlamenti və digər strukturlarda qatı millətçiliyin, ksenofobiyanın, dini-irqi ayrı-seçkiliyin, islamofobiya və türkofobiyanın artması Avropa İttifaqının dünya ilə körpülərini də təhlükə altına qoyur. Bu isə Avropa İttifaqının da dağılmağa doğru getdiyinə işarədir".

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*




## Millətçilər Avropada əsas siyasi gücə çevrilirlər

**Avropa Parlamentinə keçirilən seçkilərdən sonra Fransa Prezidenti Emmanuel Makron siyasi gediş etdi. Onun "İntibah" partiyasının daxil olduğu koalisiya seçkilərdə məğlub olduqdan sonra Prezident Fransa parlamentinin aşağı palatasını buraxdı.**

Qeyd edək ki, qələbəni Marin Le Penin yaratdığı millətçi "Milli Birlik" partiyası qazanıb. O, "İntibah"dan iki dəfə çox seçici dəstəyi alıb.

Fransadan başqa, baş naziri artıq uduzduğunu etiraf edərək istefa verən Belçikada da seçkilərdə millətçilər liderlik edirlər.

Hazırda dünyanın aparıcı mediası seçkilərin Avropa üçün hansı nəticələrə səbəb ola biləcəyini müzakirə edir. Avropa Parlamentinə seçkilərin ilk nəticələri siyasi mənzərənin yenidən qurulduğunu göstərib. Millətçi partiyalar Fransa, İtaliya və Avstriyada birinci, Almaniya və Niderlandda ikinci yeri tutublar. İlkin nəticələr təsdiqlənərsə, onlar Avropanın gələcəyinə qeyri-müəyyənlik gətirəcək.

Alyansdakı əsas partiyaların əksəriyyəti öz yerlərini qoruyub saxlaya bilsələr də, yeni qüvvələr balansı növbəti beş il ərzində Avropa siyasətinin formalaşmasında böyük rol oynayacaq. İmmiqrasiya siyasi gündəmin əsasını təşkil edır. Radikal partiyalar sərhədlər və Avropa İttifaqına kənar ölkələrdən gələnlərlə bağlı daha sərt mövqe tutacaqlar.



İqlim siyasəti və "Yaşıl Sövdələşmə" indi sual altındadır. Bunu bərpaolunan enerji mənbələri haqqında da demək olar. Belə ki, alyans diqqətini daha ucuz təchizatı dəstəkləməyə yönəldə bilər. Həmçinin gözlənilir ki, bəzi Aİ ölkələrinin Rusiya ilə mövcud əlaqələri səbəbindən Ukraynanın dəstək və müdafiə strategiyası da dəyişəcək.

Emmanuel Makron kimi, Almaniya kansleri Olaf Şolts da zərər çəkib, onun Sosial Demokratlar Partiyası 14 faizlə tarixinin ən pis nəticəsini göstərib.

Avropa mətbuatı yazır ki, AP-yə seçkilər mövcud milli hökumətlər üzərində faktiki referendumdur və nəticələr 2027-ci il Fransada prezident seçkilərində Makron və 2025-ci ildə Almaniyada federal seçkilərdə Şolts üçün problemlər yarada bilər.

Britaniyanın "The Guardian" qəzeti vurğulayır ki, ümumi tendensiya Şimali Avropa ölkələri tərəfindən pozulub. Orada millətçi koalisiya sol və "yaşıl partiya"ların uğurları fonunda dəstəyinin azaldığını görüb. Lakin Aİ parlamentində birinci yeri tutan, sağ mərkəzçi qüvvələri birləşdirən Avropa Xalq Partiyasının lideri və Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen millətçilərə qarşı sipər qurmaq niyyətində olduğunu açıqlayıb.

"Europe 1" radiostansiyasının məlumatına görə, Fransa Prezidenti Emmanuel Makron yaxın ətrafı ilə erkən parlament seçkilərində millətçilərin mümkün qələbəsini müzakirə edir. Əgər onlar uğur qazansalar, Prezident istefa verə bilər.

Radiostansiya mənbələrdən birinə istinadən bildirir: "Prezidentin istefası tabu deyil. Bəli, bu gün bütün ssenariləri nəzərdən keçirməliyik. Bunun son addım olduğu vurğulansa da, Makron beşillik səlahiyyət müddətinin bir neçə ilini qurban verməyə hazırdır".

Fransa Prezidenti iyunun 9-da tərəfdarlarının Avropa Parlamentinə seçkilərdə məğlub olmasından sonra Milli Assambleyanı buraxıb. BFM telekanalı Fransanın baş naziri Qabriel Attalın prezidenti parlamenti buraxmaqdan çəkindirməyə çalışdığını bildirib. Buna baxmayaraq, o, iyunun 30-da növbədənkənar parlament seçkiləri keçirmək qərarına gəlib. Öz növbəsində, Fransa mediası Emmanuel Makronun növbədənkənar parlament seçkiləri ilə bağlı qərarını ölkə üçün naməlum vəziyyətə aparan avantürist sıçrayış adlandırıb.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

## Avropa Parlamentinə seçkilər "makronizm"in iflasının təzahürüdür

**İyunun 9-da Avropa Parlamentinə keçirilən seçkilər Fransanın hazırkı hakimiyyətində məyusluq yaradan nəticələr doğurdu. Marin Le Penin rəhbərlik etdiyi "Milli birlik" partiyası əvvəlki nəticələrini xeyli yaxşılaşdıra bildi və bu, həmin gün Milli Assambleyanın buraxıldığını və ölkədə iki turdan ibarət növbədənkənar parlament seçkilərinin (müvafiq olaraq, iyunun 30-da və iyulun 7-də) keçiriləcəyini elan edən hazırkı Prezident Emmanuel Makron üçün pis xəbər oldu.**




Belə bir vəziyyətdə ilk ağla gələn Makronun 2017-ci il mayın 7-də - prezident seçkilərində birinci qalibiyyəti zamanı verdiyi vəd olur. Xatırlayırıq ki, o, həmin vaxt ifrat radikal siyasətçilərə səs verməməsi üçün seçicilərə heç bir tutarlı əsas verməyəcəyinə and içmişdi. İndi isə ekstremist baxışları ilə tanınan Le Penin partiyası ilə yanaşı, daha bir müxalif qüvvənin - "Respublikaçılar" partiyasının lideri Erik Syotti keçirilən seçkilərin nəticələrini "makronizm"in iflası kimi xarakterizə edib.

Bu, həqiqətən də, çox simvolikdir! Həm də bu simvolizm daxili iqtisadiyyatdan və ölkədəki sosial "harmoniyadan" tutmuş seçdiyi xarici siyasətə qədər - Azərbaycanla heç bir rasional izahı və ya məqsədəuyğunluğu olmayan tamamilə mənasız qarşıdurma kursu götürmək üzrə özünün siyasi kursunun demək olar ki, bütün istiqamətlərində hazırkı Prezidentin fəaliyyətinin tam iflasını əks etdirir. Makron da başqa siyasətçilər kimi Zəfər Prezidenti, Müzəffər Sərkərdə, xalq tərəfindən sevilən liderlə (bunu fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərinin nəticələri sübut edir) dostluğu inkişaf etdirmək əvəzinə... düşmənçiliyi seçdi. Yaxşı, bəs yekunda nəyə nail oldu? Onun ölkəsi az qala tamamilə dağılmış, hətta bu yaxınlarda layiqli zərbələr aldığı Azərbaycana qarşı revanşist xəyallarından belə əl çəkməyən Ermənistanı seçməklə nə qazana bilər? Məntiqlə düşünən ekspertlər və siyasətçilər bu seçimi başa düşə və izah edə bilməzlər!

Makron şahmat taxtası arxasında hər dəfə ən zəif fiqurları seçirdi. Bunun nəticəsi isə seçicilər arasında onun nüfuzunun aşağı düşməsi və erkən parlament seçkilərini elan etməsi oldu.

Bu, hələ ənənəvi olaraq Fransanın mövcud olmadığı Qafqaza aiddir. Bəs bir vaxtlar Fransa imperiyasına daxil olan və Azərbaycanın məşhur pilotsuz uçuş aparatının adı ilə mütənasib olaraq ("İtiqovan-red.) neokolonialistlərin qovulduğu Qərbi Afrika haqqında nə deyə bilərik? Yerli əhalinin müstəmləkəçiliyə qarşı ehtiraslarının artıq aylardır tüğyan etdiyi və aralarında çoxlarının öldürüldüyü Okeaniya haqqında nə demək olar?

Gözümüzün qarşısında "Makron" sözü ("Soros" kəlməsi kimi) xüsusi addan ümumi ismə çevrilib. Əgər "Soros" rəngli inqilablar və xaos deməkdirsə, "Makron" sözü fiasko ilə sinonimdir. Prezidentin özü çoxdandır lağ obyektinə çevrilib. Fransız xalqının çoxdan belə rüsvayçı lideri olmayıb, baxmayaraq ki, bu xalq həqiqətən də mötəbər liderlərə layiqdir və keçmişdə də belə olub.

Hətta Makronun növbədənkənar parlament seçkiləri elan etməsi faktı da onun əleyhinə çevrildi. Onun qərarını açıqlamaq üçün vaxt seçməsi - Avropa Parlamenti seçkilərinin məyusedici nəticələrinin məlum olduğu gün - bu iki hadisənin bir-biri ilə əlaqəli olduğuna və birinin digərini şərtləndirdiyinə heç bir şübhə yeri qoymadı. Gülməli olan odur ki, Makron Milli Assambleyaya növbədənkənar seçkiləri bir az gec elan edə bilərdi ki, onun vəziyyəti o qədər də açıq-aşkar bilinməsin, yəni az-çox ağlabatan səbəblər ortaya qoya bilərdi. İndi isə hamıya aydındır ki, seçkilər Makronun partiyasının Avropa Parlamentinin yeni tərkibində uğursuzluğu səbəbindən keçiriləcək. Milli parlamentin buraxılmasının tələsik elan edilməsi faktının özü də istər-istəməz onun rəqiblərinə əlavə reytinq xalları verdi. Hətta bu məsələdə Makronun yaxınlığında ağıllı bir məsləhətçisi də yox idi. O, lap "Uğursuzlar" filmindəki Pyer Rişarın qəhrəmanını xatırlatdı.

İndi hazırkı Prezidentin siyasi gücünün erkən seçkilərdə də uğursuzluğa düçar olacağı ehtimalı daha da artır. Bunu əhalinin 54 faizinin parlamentin tərkibinin yenilənməsi qərarını dəstəklədiyi ictimai rəy sorğusunun məlumatları sübut edir. Bütün bunların anlamı nədir? Proseslər elə həmin mənanı verir, yəni cəmiyyət mövcud vəziyyətdən yorulub və dəyişiklik istəyir. Üstəlik, "Le Journal du Dimanche" nəşrinə görə, IFOP İctimai Rəyin Öyrənilməsi Mərkəzi hazırkı Prezidentə ictimai etimadın səviyyəsini cəmi 31 faiz qiymətləndirib.

Bu kontekstdə sabiq Prezident Fransua Ollandın kommunikasiyalar üzrə keçmiş müşaviri Qaspar Qantzer kifayət qədər bəlağətli bir müqayisə aparıb. Məlum olduğu kimi, növbədənkənar seçkiləri əvvəllər prezidentlər Şarl de Qoll və Jak Şirak da elan etmişdi. Amma birinci halda onlar qələbə ilə başa çatıbsa, ikincidə uğursuzluqla nəticələnib. Qantzerin sözlərinə görə, Şarl de Qollun təcrübəsini təkrarlamaq istəyən Makronun Şirakın klubuna qoşulmaq üçün hər bir şansı var.

Digər siyasətçilər də növbədənkənar seçkilərin təyin edilməsi qərarına rişxəndlə yanaşıblar. Məsələn, bu bazar günü Sosialist Partiyasından Avropa Parlamentinə daxil olan Rafael Qluksmann Makronun qərarını pisləyib və bunu rəqiblərinin reytinqinin xeyrinə oynamaq kimi qiymətləndirib. Nüfuzlu "La Figaro" nəşrinin baş redaktoru Giyom Tabard isə Makronun qərarını alçaldıcı adlandırıb və Prezidentin komandasını batan "Titanik"lə müqayisə edib.

Makrona heç nə kömək etmədi. Nə onun Ukrayna gündəliyi və bu məsələdə feyk fəallığı, nə də müttəfiqlərin Normandiyaya çıxmasının ildönümü münasibətilə iflasa uğrayan mərasim. Bunların heç biri onun dadına çatmadı. İflas prosesi ardıcıl olaraq davam etdi!

Biz zamanı qabaqlamaq və proqnozlar vermək istəmirik. Yalnız məlum faktları sadalayırıq və erkən parlament seçkilərinin nəticələrini gözləyəcəyik. Onlar fikirlərimizin həqiqətə nə dərəcədə uyğun olduğunu göstərəcək.

*AZƏRTAC*

## Fransanın Yeni Kaledoniyada yerli əhaliyə qarşı törətdiyi vəhşiliklərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə mətbuat konfransı keçiriləcək

**Afrikanın müxtəlif ölkələrindən olan bir qrup jurnalist, tanınmış bloqçu və vətəndaş cəmiyyəti fəalları, eləcə də Yeni kaledoniyalı jurnalistlərin iştirakı ilə iyunun 13-də "Dekolonizasiya, beynəlxalq diplomatiya və müasir dünyada kommunikasiyanın rolu" mövzusunda hibrid formatda "dəyirmi masa" müzakirələri və mətbuat konfransı keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, Bakı vaxtı ilə saat 16:00-da başlayacaq mətbuat konfransında Fransa təhlükəsizlik qüvvələrinin Yeni Kaledoniyada yerli kanak xalqının dinc etiraz aksiyasına zorakılıqlarla cavab verməsi və bunun nəticəsində 10-dan çox dinc sakinin öldürülməsi, yüzlərlə insanın yaralanması və həbs edilməsi məsələləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılacaq. Belə ki, Fransa hökumətinin qərarı ilə Yeni Kaledoniyaya giriş qapadılıb, qanunsuz komendant saatı hələ də davam edir. Fransa polisi və jandarma qüvvələri tərəfindən törədilən vəhşilikləri dünya ictimaiyyətindən gizlətmək məqsədilə adanın sahibi olan kanakların fundamental hüquqları kobud şəkildə pozularaq ifadə və fikir azadlıqları məhdudlaşdırılıb. İnformasiya blokadasını yarmaq və adada baş verənləri yerli rəsmilərin dilindən eşitmək üçün Bakı Təşəbbüs Qrupu hibrid mətbuat konfransı təşkil edir.

Konfransın məqsədi həmçinin Yeni Kaledoniyada və Fransanın digər müstəmləkələrində geniş vüsət alan insan hüquq pozuntularına media vasitəsilə dünya ictimaiyyətinin diqqətini çəkmək, Afrikada hələ də davam edən müstəmləkəçiliyin yeni mərhələsi - neokolonializmlə mübarizə istiqamətində kommunikasiya sahəsində birgə əməkdaşlığın qurulmasının müzakirə edilməsidir. Mətbuat konfransında Yeni Kaledoniyadan yerli rəsmilər jurnalistlərin suallarını cavablandıracaqlar. Tədbirdə 20-dən çox xarici media nümayəndəsinin iştirakı gözlənilir.




## *Dövlət naziri Ohud Al RUMİ:*

# "Azərbaycanla BƏƏ arasında imzalanmış sazişlər uğurla yerinə yetirilir"

**"Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında əlaqələr güclü şəkildə inkişaf edir. Qeyd etməliyəm ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin 2024-cü ildə Azərbaycana rəsmi səfəri iki ölkə arasında əlaqələrin daha da inkişafına töhfə verdi. Səfər iki ölkə arasında mühüm razılaşmaların əldə edilməsi ilə nəticələndi".**




AZƏRTAC xəbər verir ki, bunu BƏƏ-nin hökumətin inkişafı və gələcək üzrə dövlət naziri Ohud Al Rumi Bakıda "Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri Nazirlərinin Təcrübə Mübadiləsi Forumu"nda çıxış edərkən deyib.

Nazir imzalanmış sazişlərin hazırda uğurla həyata keçirildiyini qeyd edib: "Məqsədimiz Azərbaycan ilə BƏƏ xalqlarının gələcək rifahı naminə hazırlığı gücləndirməkdir.

Azərbaycanın bu ilin noyabrında COP29 tədbirinə evsahibliyi etməsini alqışlayıram. Hesab edirəm ki, COP29 Azərbaycanın səyləri ilə tarixə çevriləcək".

# COP29-da xidmət göstərəcək 173 təcili tibbi yardım əməkdaşlarına ingilis dili təlimləri keçirilib

**Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinin COP29-da xidmət göstərəcək əməkdaşlarına ingilis dili üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində təlimlərə başlanılıb.**




AZƏRTAC xəbər verir ki, artıq bir aya yaxındır davam edən təlimlər zamanı 173 təcili tibbi yardım əməkdaşına növbəli şəkildə ingilis dili təlimləri keçirilib. Onlardan 63-ü həkim, 62-si tibb bacısı, 48-i isə sürücü olub. Bundan sonra daha 250-dən çox əməkdaşın cəlb olunacağı təlimlərin sentyabr ayına kimi davam edəcəyi nəzərdə tutulub.

Təlimlər BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29 tədbirlərinin bu il Azərbaycanda keçirilməsinə hazırlıq prosesi ilə əlaqədardır.

Təşkil olunacaq tədbirlərdə mərkəzin təcili tibbi yardım briqadaları tibbi xidmətə ehtiyacın yaranmasını nəzərə alaraq iştirakçıların sağlamlığının keşiyində xidmət göstərəcək.

TƏBİB ailəsi olaraq tədbir çərçivəsində tibbi xidmətin yüksək səviyyədə təşkil olunması üçün davamlı işlər görülür və proseslər diqqət mərkəzindədir.

# COP29 dünya ictimaiyyətinin diqqət mərkəzindədir

**COP29 dünyanın ən nüfuzlu beynəlxalq tədbirlərindən biridir. Belə möhtəşəm tədbirin ölkəmizdə keçirilməsi, sözsüz ki, Azərbaycanın dünyada artan nüfuzunun göstəricisidir. Bu, həm də Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasətin nəticəsidir.**

Yüksək təmsilçilik səviyyəsinə görə BMT Baş Assambleyasına bərabər tutulan bu möhtəşəm tədbir imkan verəcək ki, Avropa Oyunlarında, Beynəlxalq Astronavtika Konqresində və digər tədbirlərdə iştirak etmiş xarici qonaqlardan dəfələrlə geniş olan böyük nümayəndə heyətləri, ekspertlər, böyük biznes təmsilçiləri və nüfuzlu media mənsubları ölkəmizdə bir araya gəlsinlər, İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının aktual gündəliyini müzakirə etsinlər, Azərbaycanın bütün sahələrdə qazandıqları uğurları yaxından görsünlər. Tədbirin keçirildiyi günlərdə ölkəmiz həm də növbəti dəfə dünyanın diqqət mərkəzində olacaq.

Bu gün dünyada iqlim dəyişikliyinin yaratdığı fəsadların aradan qaldırılması qlobal aləm üçün başlıca problemlərdən birinə çevrilib. Bu mövzu beynəlxalq müstəvidə aktiv şəkildə müzakirə olunur, həll yolları istiqamətində mühüm addımlar atılır. Bütün dünyaya məlumdur ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransları bu məsələdə xüsusi rola malikdir. Qlobal iqlim dəyişikliyi ilə mübarizədə davamlı addımlar atmaq üçün bu tədbir hər il müxtəlif ölkələrdə keçirilir. Bu il ünvan Azərbaycandır.

COP29-un yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə ciddi hazırlıq işləri görülür. Səmərəli və zəruri olan müzakirələr aparılır, təqdimatlar keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev mayın 2-də BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hartı qəbul edərkən bildirib ki, COP29-a hazırlıq məqsədilə bütün lazımi və zəruri işlər planauyğun davam edir, Azərbaycan beynəlxalq ictimaiyyətlə və təsisatlarla COP29-un substantiv məsələləri üzrə danışıqlar və



məsləhətləşmələr aparır. "Azərbaycanın məqsədi dünya ölkələri arasında iqlim dəyişmələri mövzusunda həmrəyliyin və birgə fəaliyyətin gücləndirilməsidir. Bütün dünya ölkələri, o cümlədən Azərbaycan iqlim dəyişmələrinin mənfi təsirlərinə və fəsadlarına məruz qalıb. Belə ki, artıq son yeddi ildə Azərbaycanda quraqlıq müşahidə olunub, yağıntının miqdarı əhəmiyyətli dərəcədə azalıb. Bu il yağıntının miqdarının artması prosesi baş versə də, bütövlükdə Azərbaycan bundan əziyyət çəkir. Xəzər dənizinin suyunun çəkilməsi prosesi müşahidə olunur və bu da ciddi narahatlıq doğuran məqamdır".

"Azərbaycan COP29-a ciddi şəkildə hazırlaşır və bu gün Bonnda müvafiq sənədlərin imzalanması həyata keçirildi. Ölkə üzrə yaxın gələcəkdə böyük müqavilənin də bağlanması gözlənilir. Hazırda Azərbaycan tərəfi tədbir yerinin hazırlanması, iştirakçıların yerləşdirilməsi, təhlükəsizlik, protokol və s. olmaqla kompleks məsələlər üzərində böyük komanda ilə iş aparılır. Bu istiqamətdə böyük siyasi dəstək də mövcuddur". Bunu COP29-un müəyyən olunmuş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan mediası üçün açıqlamasında deyib. Muxtar Babayev bildirib ki, BMT-nin İqlim Dəyişikliyi Konfransı COP29-a gedən yolda çox önəmli bir hadisədir. Hər gün burada keçirilən onlarla görüş və toplantılar, müxtəlif komitələrdə aparılan iclaslar, plenar sessiyalarda iştirak və çıxışlarda Azərbaycanın COP29-a hazırlığı və danışıqlar prosesində mövqeyi təqdim olunur, eləcə də hüquqi və texniki xarakterli bir çox suallara cavab axtarılır. Qeyd edilib ki, Bonn konfransında danışıqlar prosesində yaxından iştirak Azərbaycan nümayəndə heyətlərinin öz səriştəsini göstərmək üçün yaxşı imkandır. Çünki konfransda ciddi danışıqlar prosesi gedir, bu prosesə peşəkar ekspertlər cəlb olunub.

Bonnda keçirilən BMT-in İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Yardımçı Qurumunun 60-cı sessiyasında iştirak edən bir sıra QHT-lər Azərbaycanın COP29 ölkəsi kimi bütün maraqlı tərəflərlə dialoq və əməkdaşlığı təşviq edən fəaliyyətini təqdir edən bəyanat yayıb. Bəyanatı 31 ölkədən 102 QHT təmsilçisi və ictimai fəal imzalayıb. Bəyanatda deyilir: "Biz, aşağıda imzası olan vətəndaş cəmiyyəti təşkilatları qlobal ictimaiyyəti davamlı və yaşıl gələcəyə doğru istiqamətləndirmək kimi mühüm vəzifəyə rəhbərlik edən COP29 Sədrliyinə və tədbirə evsahibliyi edəcək Azərbaycana öz dəstəyimizi bildiririk. Vətəndaş cəmiyyəti təbliğat, monitorinq, təmsilçilik və innovativ həllər təmin etməklə, iqlim dəyişmələri danışıqlarına öz töhfəsini verir. İqlim məsələləri ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılmasından tutmuş daha güclü iqlim siyasətinin icrasına nail olmaq üçün biz müxtəlif icmaların, xüsusən də həssas və təcrid vəziyyətinə düşmüş qrupların narahatlıqlarını danışıqlarda ön plana çıxarırıq. Bu baxımdan COP29-a sədrlik və evsahibliyi edəcək Azərbaycanın bütün maraqlı tərəflərlə dialoq və əməkdaşlığın təşviqində rolu çox əhəmiyyətlidir".

COP29-la əlaqədar Azərbaycana xarici QHT-lərdən ardıcıl dəstək bəyanatlarının gəlməsi bir daha onu göstərir ki, bu möhtəşəm tədbir bütün dünyanın diqqət mərkəzindədir. Artq 50-dən çox ölkəni təmsil edən 360-dan çox QHT və ictimai fəal birgə bəyanatlar yayaraq Azərbaycanın COP29 üzrə qlobal liderliyini alqışlayır. Bu təşkilatlar arasında inkişafda olan regionların təmsilçilərinin üstünlük təşkil etməsi müşahidə olunur. Bu isə o deməkdir ki, Prezident İlham Əliyevin inkişaf etməkdə olan dünyanın problemlərini ardıcıl şəkildə qaldırması, qlobal təşəbbüslərlə çıxış etməsi dünyanın müxtəlif regionlarında böyük maraqla qarşılanır, diqqətlə izlənilir. Buna görə də gündən-günə Azərbaycana maraq və rəğbət artır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Bakıda COP29 ərəfəsində "Xəzər Mavi Üfüqlər" adlı ilk seminar təşkil olunub

**"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC (Bakı Limanı), ADA Universiteti və IDEA İctimai Birliyi 1-ci "Xəzər Mavi Üfüqlər" seminarının birgə keçirilməsini elan edib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın İsveçrədəki səfirliyi tərəfindən dəstəklənən bu təşəbbüs Xəzər dənizi regionunda ekoloji problemlərin həlli üçün qlobal miqyasda maraqlı tərəfləri bir araya gətirmək məqsədi daşıyır.**






İyunun 10-dan 11-dək ADA Universitetində başlayan ilk seminar bu ilin noyabrında baş tutacaq COP29-un əhəmiyyətini və beynəlxalq iqlim məqsədlərinə uyğunluğunu vurğulayır. Seminar tam olaraq tədqiq edilməmiş Xəzər dənizinin dayanıqlılığının və davamlılığının artırılmasına əsas diqqət yetirməklə, davamlı inkişaf və ətraf mühitə nəzarət prinsiplərini vurğulayaraq elm adamları, siyasətçilər və sənaye liderləri arasında sahələrarası əməkdaşlıq üçün mühüm platforma rolunu oynayır.

Seminarda açılış nitqini "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov edib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayevin çıxışı Azərbaycanda ətraf mühitin dayanıqlılığı, iqlimə davamlılıq və qlobal əlaqə mövzularında olub.

Daha sonra isə Azərbaycan Milli Məclisinin deputatı, COP29-un İqlim üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai, energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov çıxış ediblər.

12 ölkənin 15 aparıcı universiteti və akademik qurumlarından 30-dan çox görkəmli alim və tədqiqatçı da daxil olmaqla 100-ə yaxın iştirakçı tədbirin müxtəlif tematik panellərində iştirak edirlər.

Bundan başqa, seminarda yüksəksəviyyəli dövlət rəsmiləri, diplomatik qurumların rəhbərləri, özəl sektor rəhbərləri, beynəlxalq və mülki təşkilatların nümayəndələri də iştirak ediblər.

Bakıda keçirilən seminarın davamı olaraq, bu ilin sentyabrında İsveçrədə keçiriləcək 2-ci seminar planlanır. Bu seminarlar silsiləsi Azərbaycanın Xəzər dənizinin və onunla əlaqəli regionun öyrənilməsində beynəlxalq əməkdaşlığın təşviqinə sadiqliyini vurğulayır və daha yaxşı sabaha işıq saçacaq.

# BMT-nin İqlim Dəyişmələri Konfransında bir qrup xarici QHT Azərbaycanla bağlı bəyanat yayıb

**Almaniyanın Bonn şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Yardımçı Qurumunun 60-cı sessiyasında iştirak edən bir sıra QHT-lər Azərbaycanın COP29 ölkəsi kimi bütün maraqlı tərəflərlə dialoq və əməkdaşlığı təşviq edən fəaliyyətini təqdir edən bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, bəyanata 31 ölkədən 102 QHT təmsilçisi və ictimai fəal imza atıb.**

Bəyanatda deyilir: "Biz, aşağıda imzası olan vətəndaş cəmiyyəti təşkilatları qlobal ictimaiyyəti davamlı və yaşıl gələcəyə doğru istiqamətləndirmək kimi mühüm vəzifəyə rəhbərlik edən COP29 Sədrliyinə və tədbirə evsahibliyi edəcək Azərbaycana öz dəstəyimizi bildiririk. Vətəndaş cəmiyyəti təbliğat, monitorinq, təmsilçilik və innovativ həllər təmin etməklə, iqlim dəyişmələri danışıqlarına öz töhfəsini verir. İqlim məsələləri ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılmasından tutmuş daha güclü iqlim siyasətinin icrasına nail olmaq üçün biz müxtəlif icmaların, xüsusən də həssas və təcrid vəziyyətinə düşmüş qrupların narahatlıqlarını danışıqlarda ön plana çıxarırıq. Bu baxımdan COP29-a sədrlik və evsahibliyi edəcək Azərbaycanın bütün maraqlı tərəflərlə dialoq və əməkdaşlığın təşviqində rolu çox əhəmiyyətlidir".

### Azərbaycanın indiyədək ən inklüziv COP-a evsahibliyi edəcəyinə inanırıq

Xarici QHT-lərin Bonn bəyanatında həmçinin qeyd edilir ki, "həssas və təcrid vəziyyətinə düşmüş icmaların, o cümlədən yerli xalqların, qadınların və gənclərin




səslərinin danışıqlar prosesində eşidilməsini və nəzərə alınmasını təmin etmək vacibdir. İqlim fəaliyyətinə təkan vermək üçün vətəndaş cəmiyyətinin əsas rolunu dərk etməklə, QHT nümayəndələrini qərarların qəbulu proseslərinə fəal şəkildə cəlb etməklə, insanların və planetin ehtiyaclarını prioritet elan etməklə, biz Azərbaycanın indiyədək ən inklüziv COP-a evsahibliyi edəcəyinə inanırıq".

Bəyanatda Azərbaycanın inkişaf etməkdə olan dünyanın ehtiyaclarını nəzərə alaraq, bu ölkələrdə yaşayan yüz milyonlarla insanın, o cümlədən inkişaf etməkdə olan kiçik ada dövlətlərinin iqlim dəyişmələri ilə bağlı çətinliklərini dilə gətirməsi, həlli üçün ardıcıl səy göstərməsi xüsusi vurğulanır. Bundan başqa, COP29 üzrə iqlim dəyişmələrinin həllində qlobal liderliyi öz üzərinə götürən Azərbaycanın mənalı əməkdaşlığa, iddialı öhdəliklər götürülməsinə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında yeni maliyyə hədəfi üzrə konsensusa nail olacağına və hamı üçün bərabər və ədalətli gələcəyin qurulmasına doğru ciddi addımlar atacağına əminlik ifadə olunur. Bəyanat bu sözlərlə yekunlaşır: "Bonn konfransında iştirak edən vətəndaş cəmiyyəti təmsilçiləri iqlim sazişlərinin məqsədlərinə nail olmaq üçün bütün maraqlı tərəflərlə əməkdaşlığa hazırdır. Biz birlikdə əmin ola bilərik ki, COP29 dayanıqlı gələcəyə doğru mühüm mərhələni uğurla başa vuracaq".

### Rəqəmlər danışır

Son vaxtlar COP29-la əlaqədar Azərbaycana xarici QHT-lərdən ardıcıl dəstək bəyanatları qəbul olunmaqdadır. Beləliklə, son dörd ayda 50-dən çox ölkəni təmsil edən 360-dan artıq QHT və ictimai fəal birgə bəyanatlar yayaraq Azərbaycanın COP29 üzrə qlobal liderliyini təqdir edib. Bu təşkilatlar arasında inkişaf etməkdə olan regionların təmsilçilərinin üstünlük təşkil etməsi də müşahidə olunur. Bu isə o deməkdir ki, Prezident İlham Əliyevin inkişaf etməkdə olan dünyanın problemlərini ardıcıl şəkildə qaldırması, qlobal təşəbbüslərlə çıxış etməsi dünyanın müxtəlif regionlarında böyük maraqla qarşılanır, diqqətlə izlənilir və Azərbaycana olan rəğbəti artırır. Xarici QHT-lərin bəyanatlarında Azərbaycana ümid yeri kimi yanaşılması da bunun bariz nümunələrindən biridir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İspaniyanın tanınmış İT şirkəti Azərbaycanla əməkdaşlığa maraq göstərir

**İqtisadiyyat naziri Mikayıl Cabbarov İspaniyanın "Indra Sistemas" şirkətinin vitse-prezidenti Luis Permuy ilə görüşüb.**



Görüşdə "Indra Sistemas" şirkətinin ölkəmizdə həyata keçirdiyi layihələr və Azərbaycanda istehsalın lokallaşdırılması üçün potensial imkanlar ətrafında fikir mübadiləsi aparılıb, qarşıdakı dövrdə əməkdaşlıq planları müzakirə edilib.

Qeyd edək ki, İT və kommunikasiya xidmətləri, İT konsaltinq, avtomatlaşdırılmış sınaq avadanlıqları və digər sahələrdə ixtisaslaşmış İspaniyanın "Indra Sistemas" şirkəti dünyanın 46 ölkəsində fəaliyyət göstərməklə 140-dan çox ölkə ilə biznes tərəfdaşlığı qurub.

## Bu ayın bütün pensiya, müavinət, təqaüd və ünvanlı yardımları Qurban bayramı ərəfəsində tam ödəniləcək



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu məlumat yayıb.**

Məlumatda bildirilir ki, DSMF tərəfindən Qurban bayramı ilə əlaqədar iyun ayının bütün pensiya, müavinət, təqaüd və ünvanlı sosial yardımları qrafikdən əvvəl olmaqla iyunun 14-də tam ödəniləcək.

Xatırladaq ki, iyunun 7-də Bakı, Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə iyun ayının pensiyaları artıq ödənilib.

◆ TANAP-ın istifadəyə verilməsindən 6 il keçir

## "Cənub qaz dəhlizi"nin orta halqası

**Hazırda Azərbaycan 8 ölkəyə - Gürcüstan, Türkiyə, Yunanıstan, İtaliya, Bolqarıstan, Rumıniya, Macarıstan və Serbiyaya qaz ixrac edir. Yaxın gələcəkdə ixracın coğrafiyası xeyli genişlənəcək. Azərbaycan qazını dünyaya aparan yol isə Gürcüstandan və Türkiyədən keçir. Türkiyəyə qaz 2007-ci il iyulun 3-dən Bakı-Tbilisi-Ərzurum kəməri, 2018-ci il iyunun 12-dən isə həm də Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə çatdırılır. TANAP-la Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı vaxt - həmin il iyunun 30-da başlanıb.**




6 il əvvəl istifadəyə verilən TANAP təkcə region üçün deyil, Avropa məkanı üçün də mühüm əhəmiyyət daşıyır. Çünki o, Xəzərin sahilindən başlayaraq Adriatik dənizinin sahilinə, İtaliya torpağınadək uzanan 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin ən böyük hissəsidir. Bu dəhlizi yaradan üç kəmərin ikincisi olması TANAP-ın dəyərini daha aydın əks etdirir.

TANAP Azərbaycanla Türkiyənin birgə layihəsidir. Onun salnaməsi qısa olsa da, zəngin və maraqlıdır. Belə ki, layihə ilə bağlı Azərbaycan və Türkiyə arasında anlaşma memorandumu 2011-ci il dekabrın 24-də imzalanıb. Boru kəməri sisteminə dair sazişə isə 2012-ci il iyunun 26-da İstanbulda imza atılıb və sənəd hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. Bununla da Azərbaycan və Türkiyə siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində TANAP-ın tikintisi ilə bağlı razılıq əldə edilib. Qazın uzunmüddətli sazişlər əsasında Avropa İttifaqı ölkələrinə ixrac edilməsi üçün mühüm danışıqlar aparılıb, TANAP-ın və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) inşasına dair sənədlər imzalanıb. 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə TANAP-ın təməli qoyulub.

TANAP-ın işə düşməsi mühüm tarixi hadisə kimi dəyərləndirilir. Çünki bu, Azərbaycanın təkcə neft diyarı deyil, həm də qaz ixrac edən ölkə olduğunu bir daha təsdiqlədi. TANAP Azərbaycan və Türkiyənin, hər iki ölkənin dövlət başçılarının birgə səyi nəticəsində gerçəkliyə çevrilən unikal layihə olduğuna görə, bu birliyi və qardaşlığı bir daha nümayiş etdirdi.

Prezident İlham Əliyev kəmərin əhəmiyyəti barədə belə demişdir: "TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür".

Belə ki, TANAP Gürcüstan-Türkiyə sərhədində genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri) ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-a qovuşur. Təsadüfi deyil ki, bu boru xəttini möhtəşəm "Cənub qaz dəhlizi"nin birləşdirici halqası, onurğa sütunu adlandırırlar.

TANAP Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edir, ölkənin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək Avropanın qapısına çatır. Kəmərin Gürcüstan-Türkiyə sərhədində başlayıb Əskişəhərdə bitən hissəsinin uzunluğu 1350 kilometr, oradan Türkiyə-Yunanıstan sərhədinədək olan hissəsi isə 480 kilometr təşkil edir.

2019-cu il iyulun 1-dən etibarən TANAP Azərbaycan qazını TAP-a ötürmək üçün hazır vəziyyətə gətirilib. Həmin il noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu kəmərin əhəmiyyətini belə vurğulayıb: "TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür. Bu layihə hər şeydən əvvəl ölkələrimiz arasındakı köklü dostluğun rəmzidir. TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilmişdir. Layihənin uğur qazanmasında istehsalçı, tranzit və istehlakçı ölkələrlə bu layihədə pay sahibi olan şirkətlər arasındakı uzlaşma da həlledici rol oynayıb".

Xatırladaq ki, TANAP-ın səhmlərinin 51 faizi "Cənub qaz dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi BOTAŞ-a, 12 faizi BP şirkətinə məxsusdur.

2020-ci il dekabrın 31-dən Azərbaycan qazı artıq Avropaya da nəql olunur. Qeyd olunduğu kimi, TAP kəməri bu qitəyə daşıdığı mavi yanacağı məhz TANAP-dan qəbul edir. Cari ayın 4-də Bakı Enerji Həftəsinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev bildirdi ki, bu il qaz ixracımız ümumilikdə 24 milyard kubmetr olacaq. Bu həcmin yarıya qədərini TANAP Avropaya ötürəcək. Öz ölkəsinin idxal etdiyi qazın da yarıdan çoxunu bu kəmər daşıyır. Məsələn, bu ilin ilk iki ayında Türkiyəyə ixrac edilən 1,4 milyard kubmetr qazın 0,8 milyard kubmetri TANAP-la çatdırılıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Gələcəyin Miçurini

### Qubalı 11-ci sinif şagirdi niyə aqronom olmaq istəyir?

**Cavidan Quba rayonunun Zərdabi qəsəbəsindəki orta məktəbin 11-ci sinfində oxuyur. Neçə ildir babası, valideynləri onu məcbur edirlər ki, dəqiq elmlərə uyğun peşə seçsin. Elə ali məktəbə qəbul olunsun ki, gələcəkdə yaxşı maaş alsın. Elektron cihazları seçsin, üzünü riyaziyyata və ya fizikaya tutsun.**



Amma ona deyilənlərin heç bir faydası yoxdur. Nə desələr də, Cavidan fikrini dəyişmir ki, dəyişmir. Bir sözlə, görünən odur ki, o öz yolunu çoxdan seçib, başqa istiqamətə də yönümünü dəyişmək niyyətində deyil. Ona göstərilən bütün təzyiqlər faydasızdır.

Cavidanla görüşüb söhbətləşirik, istəyirəm ki, ürəyini açsın. Qohum-əqrəbası onu yamanca çaşdırır. Hərə bir tərəfdən onun beyninə yeritməyə çalışır ki, bağban olmaq istəyi boş və mənasızdır. O da öz növbəsində ətrafındakıları anlamadığını deyir: "Mən elə peşə seçməliyəm ki, hamının yox, mənim ürəyimə yatsın. Kənd məktəbində oxuyuram. Dörd tərəfimiz meyvə bağları ilə üzük qaşı kimi əhatəyə alınıb. Bundan başqa, elə özümüzün də həm bağımız, həm də həyətyanı torpaq sahəmiz var. Özüm də lap balacalıqdan torpağın üstündə eşələnərdim. Həmişə çalışmışam ki, nəsə əkim, becərim, məhsul dərim. Elə olurdu ki, zəhmətim hədər getmirdi. Əkib-becərdiyim bir neçə ilə bəhərə düşüb bar verəndə sevincim yerə-göyə sığmazdı. Bəzən də elə olurdu ki, əkdiyim torpaqda bərkiyib boy vermirdi, bəhərə də düşmürdü. Aylarla çəkdiyim zəhmət beləcə əsəbiləşirdim. Heç kimi danışdırmaq istəmirdim.

Cavidan torpaqla tədricən ünsiyyət qura bilib, onun dilini tapıb. Vaxt keçdikcə onun təcrübəsi də artır, əkdikləri qol-budaq verib bəhərə düşür. Dərdiyi ilk meyvələri adətən qohum-qonşuya paylayır. Amma fikirləşir ki, artıq pul qazanmaq da vacibdir. Gərək əlinin qabarı ilə dolanmağı da bacarasan. O, bunu da sınaqdan keçirməyə hazırdır. Artıq bu ildən satlıq çiyələyi də, gilası da yetişir. Deyir ki, bir neçə ildən sonra bar verən ağaclarının sayı iki dəfə artacaq. Hesablayır ki, belə olarsa, təhsil haqqının bir qismini də özü ödəyə bilər. Onu da hesablayıb ki, Gəncədə, Azərbaycan Dövlət Aqrar Universitetində təhsil alarsa, həyətyanı sahəsi olan evdə kirayənişin qalacaq. Orada da əkib-becərəcək, təcrübəsini artıracaq.

İndi Cavidan ondan oxumağa hara gedəcəyini soruşanlara "hələ bilmirəm" deyə cavab verir. Heç kim bilməsə də, Cavidana seçdiyi ixtisas gün kimi aydındır. O, artıq sevdiyi peşəni dəqiq tapıb və onu da bilir ki, bu barədə heç kimə heç nə demədikcə başı da ağrımır. Qohum-əqrəba isə yenə əvvəlki qaydada ona tövsiyə edir ki, üzünü dəqiq elmlərə tutsun.

Cavidana qəribə gələn odur ki, kənddə-kəsəkdə doğulanlar da torpaqdan aralı düşüblər. Böyüyürlər, kənddən çıxıb şəhərə qaçırlar. Ya Qubada işləyirlər, ya da çıxıb Bakıya gedirlər. Amma qazandıqları da sanki gözə dəymir. Bir də görürsən ki, gəlib kəndimizdən meyvə alırlar, amma 5-10 kilo meyvənin pulunu bir neçə dəfəyə qaytarırlar. Onların arasında bəzən mühəndis də, müəllim də olur. Cavidana görə, babası deyən sənətlərdən birini seçsə, elə kənddən çıxıb şəhərə gedən belələrindən artıq qazanmayacaq.

Cavidan 11-ci sinif şagirdi olsa da, torpaq haqqında fərqli düşüncəyə malikdir. "Torpaq sənin üçün nədir?" sualına belə cavab verir:

- Birincisi, torpaq mənim çörək ağacımdır, sonra evim-eşiyimdir. Elə Vətən də bu torpaqlardır. Yəni torpağın qədrini bilməsək, heç nəyimiz olmaz. Bizi dolandıran, bizə ruzi verən də torpaqdır, Vətəndir.

Elə yeniyetmələr var ki, peşə axtarır, tapmaqda çətinlik çəkirlər. İllərlə özünə peşə axtarıb heç nə əldə edə bilməyənlər də var.

Cavidan isə özünü də, peşəsini də üstündə gəzdiyi torpaqda axtarır, elə mehrini də torpağa salır. Özünü də dünyanın ən xoşbəxt adamı sayır ki, torpaqla dil tapıb danışa bilir. İnsanın torpaq sevdası qəribə olduğu qədər də heyrətamizdır. Gərək qəlbində peşənə də, torpağa da, elə təbiətin özünə də sonsuz bir sevgi ilə yanaşa biləsən.

Bu gün Cavidanı anlamayanlar, inadından əl çəkməyə vadar etmək istəyənlər vaxt gələcək ki, onun uğurlarının şahidi olacaqlar. Nə qədər düzgün addım atdığını etiraf edəcəklər. Axı bu günün özündə də bütün rayonlarda, o cümlədən elə Qubada da savadlı aqronomlara böyük ehtiyac var. İnsanlar bağlarına elmi qaydada yox, elə bir-birindən eşitdiklərinə əsasən qulluq edirlər. Bu isə heç də həmişə düşərli olmur. Odur ki, Cavidan kimi gənclərə bütün ölkənin ehtiyacı var.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## 5 ayda 20,9 milyard kubmetr təbii qaz hasil edilib

**Cari ilin 5 ayı ərzində respublikada 3,5 faiz artımla 20,9 milyard kubmetr təbii qaz hasil edilib.**

Energetika Nazirliyinin məlumatına görə, qazın 5,4 milyard kubmetri "Azəri-Çıraq-Günəşli", 11,6 milyard kubmetri "Şahdəniz", 0,65 milyard kubmetri "Abşeron", 3,2 milyard kubmetri SOCAR üzrə hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən 0,7 milyard kubmetr artımla qaz hasil edilib.

Bu ilin beş ayı ərzində xaricə qaz satışı 10,6 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Avropaya 5,3 milyard kubmetr, Türkiyəyə 4,1 milyard kubmetr, Gürcüstana isə 1,2 milyard kubmetr qaz satılıb. Türkiyəyə TANAP-la bu müddətdə 2,3 milyard kubmetr qaz nəql olunub.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən iyunun 1-dək "Azəri-Çıraq-Günəşli"dən 221,8 milyard kubmetr, "Şahdəniz"dən isə 220,6 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın 157 milyard kubmetri ixraca yönəldilib.

## Kommersiya qurumlarının 80 faizi dövlət qeydiyyatına elektron qaydada alınıb

**Cari ilin yanvar-may aylarında 5230 vahid kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, bunun da 4695-i (89,8 faiz) yerli investisiyalı, 535-i (10,2 faiz) xarici investisiyalı qurumlardır.**

Dövlət Vergi Xidməti xəbər verir ki, dövlət qeydiyyatından keçmiş kommersiya qurumlarının 4172-si (79,8 faizi) elektron qaydada, 1058-i (20,2 faizi) kağız daşıyıcılarda edilmiş müraciətlər əsasında qeydə alınıb. Bu dövrdə qeydiyyatdan keçmiş yerli investisiyalı MMC-lərin e-qeydiyyatının xüsusi çəkisi 89,3 faiz təşkil edib. Kommersiya qurumlarının 4172-si elektron qaydada qeydiyyatdan keçib ki, onlardan 3407-si "ASAN İmza", 756-sı yeni üsul ilə (finkod + mobil nömrə) edilmiş müraciətlər əsasında qeydə alınıb.

Bu il iyun ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində aktiv ƏDV ödəyicilərinin sayı 37 min 240 vahid təşkil edərək əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14,6 faiz artıb. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi 31,9 faiz təşkil edib.

2024-cü il iyun ayının 1-nə dövlət qeydiyyatında olan 116 min 774 kommersiya qurumunun vəziyyəti aktiv olub. 2023-cü ilin müvafiq dövrünə nisbətən aktiv kommersiya qurumlarının sayı 10,8, xüsusi çəkisi isə 1,5 faiz artıb.

## "Sosial tərəfdaş" layihəsi üzrə nağdsız 450 minədək alış-veriş zamanı endirim əldə olunub

### Bu günə qədər layihəyə 200-dən çox şirkət qoşulub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) ötən ilin sonlarından icrasına başladığı "Sosial tərəfdaş" layihəsinə artıq 2 minədək xidmət şəbəkəsi olan 200-dən çox şirkət qoşulub.**

Korporativ sosial məsuliyyət nümunəsi olan və ölkəmizin hər bir bölgəsini əhatə edən layihə DSMF-dən pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım və kompensasiya alan şəxslərə dəstək məqsədi daşıyır.

Onlar layihənin iştirakçısı olan şirkətlərə aid məhsulları alarkən və ya xidmətlərindən istifadə edərkən pensiya və digər sosial ödəniş aldıqları bank kartları ilə nağdsız ödəniş həyata keçirdikdə avtomatik olaraq 2-30 faiz arası endirim tətbiq olunur. Ötən dövrdə həmin şəxslər layihə üzrə nağdsız qaydada ödəniş etdikləri artıq 450 minədək alış-veriş və ya xidmətlərdən istifadə zamanı endirim əldə ediblər.





# Mədəniyyət





**Klassiklərimiz**

## Böyük mütəfəkkir və ədib

**Nəsli-kökü barədə arxiv sənədlərində, tarix kitablarında zəngin məlumatlar var. Mənsub olduğu soyadın nümayəndələri arasında Azərbaycan tarixində, ədəbiyyatında, mədəniyyətində, incəsənətində parlaq istedadı, əməlləri ilə məşhurlaşanlar çoxdur. Abbasqulu ağa Bakıxanovu da şöhrətləndirən, adını əbədiləşdirən dərin zəkası, bənzərsiz istedadı, özünəməxsus yaradıcılıq üslubu, dəst-xəti olub. Bu il mütəfəkkir alimin anadan olmasının 230 illiyidir.**

Bakı xanları nəslindən olan II Mirzə Məhəmməd xanın ailəsində 1794-cü il iyunun 21-də Əmircan kəndində dünyaya gələn Abbasqulu ağa Bakıxanovun ömrünün ilk illəri Bakıda keçdi. O, 8 yaşınadək Abşeronun Əmircan, Maştağa, Balaxanı və Ramana kəndlərində yaşadı.

Taxt-tac sahibi olmaq yalnız güc, qüdrət demək deyil. Həm də sonu görünməyən qovğalar, çəkişmələrdir. Abbasqulu ağa Bakıxanovun da atası II Mirzə Məhəmməd xan 1802-ci ildə xanlıq taxtı uğrunda mübarizədə öz əmisi oğlu Hüseynqulu xana yenildi. Düşdüyü vəziyyət onu ailəsi ilə birlikdə Qubaya, vaxtilə yaxın qohumu olan Fətəli xanın bağışladığı Amsar kəndinə köçməyə vadar etdi. Abbasqulu ağa 1819-cu ilədək bu kənddə yaşadı. Yarımçıq qalmış təhsilini orada davam etdirdi. Ərəb və fars dillərini mükəmməl öyrənməsi həmin dillərdə yazılmış dünyaca məşhur əsərləri oxumasına imkan yaratdı. Abbasqulu ağa Bakıxanov ədəbiyyat, ilahiyyat və fəlsəfəni də mükəmməl öyrənməyə səy göstərdi.

O, 1819-cu ildə Qafqazın baş hakimi general Yermolovun dəvəti ilə Tiflisə getdi. Qafqaz Baş Hərbi İdarəsində Şərq dilləri tərcüməçisi vəzifəsinə qəbul olundu. Həmin vəzifədə 26 il çalışdı. Tiflis mühiti, orada tanış olduğu ziyalılarla görüşləri gənc Abbasqulunun dünyagörüşünün formalaşmasında mühüm rol oynadı. Abbasqulu ağa Tiflisdə Mirzə Fətəli Axundzadə, Fazil xan Şeyda, Mirzə Şəfi Vazeh, Aleksandr Qriboyedov, Fridrix Bodenştedt və başqaları ilə dostluq etdi, rus yazıçısı, dramaturqu, diplomatı Aleksandr Qriboyedovun bir sıra əsərlərinin ilkin variantda oxucusu oldu.

Abbasqulu ağa Bakıxanov 1827-ci ildə Cənubi Azərbaycana getdi. 1833-1834-cü illərdə isə Varşava və Peterburqda yaşadı. Rus şairi Aleksandr Puşkinin ailəsi ilə tanış oldu. Qubaya 1835-ci ildə döndü. Həm elmi və ədəbi yaradıcılığını davam etdirdi, həm də "Gülüstan" adlı ədəbi məclis yaratdı.

Tarix, astronomiya, coğrafiya, məntiq, psixologiya və digər elmlərə aid əsərləri Abbasqulu ağa Bakıxanovun hərtərəfli alim olduğunu təsdiq edir. Azərbaycan elm tarixində özünəməxsus yer tutan Bakıxanova "Qanuni-Qüdsi", "Əsrarül-mələküt", "Təhzibül-əxlaq", "Eynül-mizan", "Gülüstani-İrəm" kimi əsərləri böyük şöhrət gətirdi.

O, klassik ədəbiyyatın mükəmməl bilicilərindən idi. İlk gənclik illərindən başlayaraq ömrünün sonlarına qədər Qüdsi təxəllüsü ilə Azərbaycan və fars dillərində şeirlər qələmə aldı.

Filologiya elmləri doktoru Paşa Kərimov yazırdı ki, Abbasqulu ağa Bakıxanovun bizə məlum olan ilk irihəcmli bədii əsəri 1820-ci ildə - 26 yaşında Qubada yaşayarkən Azərbaycan dilində yazdığı "Riyazül-Qüds"dür. "Riyazül-Qüds" Kərbəlada baş verən hadisələrə, şiələrin əsas müqəddəslərinin həyat və əməllərinə həsr edilib. Tədqiqatçı Ənvər Əhmədov da əsərin Bakıxanovun həyatının Quba dövrünə aid olduğunu bildirib. Araşdırıcılar qeyd ediblər ki, bu əsər 1820-ci ilin payızında şiə sakinlərinin xahişi ilə Azərbaycan dilində yazılıb. Əsər Həzrət Əlinin oğlu İmam Hüseynin faciəli taleyindən və Kərbəla hadisəsindən bəhs edir.

Abbasqulu ağa Bakıxanovun 1837-ci ildə yazdığı "Kitabi-Əsgəriyyə" adlı hekayə "Riyazül-Qüds"dən sonra ikinci nəsr əsəridir. "Kitabi-Əsgəriyyə"də müəllif fanatik cəmiyyətdə problemlərlə üzləşən iki gəncin qarşılıqlı məhəbbətindən, sevgi azadlığından bəhs edir, xurafata qarşı çıxırdı. "Əsrarül-mələküt" adlı astronomiyaya dair essesini isə o, 1839-1840-cı illərdə qələmə almışdı.

Məşhur "Gülüstani-İrəm" əsəri ilə Abbasqulu ağa Bakıxanov Azərbaycan tarixşünaslığının əsasını qoydu. 1841-ci ildə farsca yazdığı bu əsərdə o, Azərbaycan xalqının, xüsusilə



Şirvan və Dağıstanda yaşayan tayfa və xalqların tarixini, qədimlərdən başlayaraq 1813-cü iləcən - "Gülüstan müqaviləsi"nə qədər olan dövrü təsvir etdi. Əsər əsas etibarilə müqəddimə, beş fəsil və nəticədən ibarətdir. Tədqiqatçılar diqqətə çatdırıblar ki, Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərini yazarkən təqribən 100-dən çox mənbədən istifadə edib. Onların içərisində Herodot, Strabon, Tasit Kornelli, Plutarx, Təbəri, Məsudi, İbn-Hövqəl, İbn əl-Əsir, Yaqut Həməvi, Əbülfida, Həmdullah Qəzvini, Mirxond, Xondəmir, Şərəfəddin Yəzdi, Məhəmməd Pəfi Şirvani, Katib Cələbi, Qolikov, Karamzin, Ustryalov və digər məşhur yunan, Roma, rus, Azərbaycan, ərəb və fars müəlliflərinin əsərləri var.

Abbasqulu ağa Bakıxanovun çoxşaxəli yaradıcılığına jurnalistlik də daxil idi. O, jurnalist kimi "Tiflisskiye vedomosti", "Zakavkazskiy vestnik", "Kavkaz" qəzetləri ilə əməkdaşlıq edirdi.

Azərbaycan xalqının görkəmli şəxsiyyətlərindən biri, böyük mütəfəkkir, maarifçi-alimi, tarixçisi şair Abbasqulu ağa Bakıxanovun ömrü 1847-ci ildə vətənindən uzaqlarda bitdi. Məkkədən Mədinəyə gedərkən vəba xəstəliyindən vəfat edən Abbasqulu ağa Vadiyi-Fatma adlanan yerdə dəfn olunub.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

**Ədəbi simalarımız**

## Şair odur ki, həmişə oxunsun və sevilsin...

### Hüseyn Arif kimi

**Əgər ömür vəfa etsəydi ədəbiyyatımızda, poeziyamızda öz dəstxəti ilə seçilən Dövlət mükafatı laureatı, Xalq şairi Hüseyn Arifin 100 yaşı tamam olacaqdı. Yazdığı əsərləri ilə böyük oxucu sevgisi qazanan şair təəssüflər ki, 32 il əvvəl - 15 sentyabr 1992-ci ildə dünyasını dəyişib.**

Deyirlər ki, şairlər cismən ölürlər, ruhən həmişə yaşayırlar. Başqa yaradıcı insanlar kimi görkəmli şair Hüseyn Arifin də nəfəsi əsərlərindən gəlir. Şair bu gün də müxtəlif zamanlarda yazdığı bir-birindən dəyərli, mənalı şeirləri ilə qəlbləri, ürəkləri fəth etməkdədir.

XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Hüseyn Arifin yaradıcılığına diqqətlə nəzər yetirdikdə görürük ki, onun şeir və poemaları mövzu baxımından genişdir, rəngarəngdir, bənzərsizdir. Elə buna görə də yazıldığı vaxtdan uzun illər keçməsinə baxmayaraq, həmin əsərlər məna qüdrətini, təsir gücünü qoruyub saxlayır. Çünki şair əsərlərində Vətən, ana, torpaq, övlad məhəbbəti kimi bəşəri dəyərləri bənzərsiz bir formada ifadə edir. Onun şeirləri bəstəkarların da diqqətindən yayınmayıb. İndiyə qədər şairin sözlərinə onlarca mahnı bəstələnib.

Hüseyn Arif (Hüseyn Hüseynzadə) 1924-cü il iyunun 15-də Qazax rayonunun Yenigün kəndində anadan olub. Bakı Pedaqoji Məktəbini, ADU-nun Şərqşünaslıq fakültəsini, Moskvadakı Qorki adına Ədəbiyyat İnstitutunun aspiranturasını bitirən şair 1957-1959-cu illərdə Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətində şöbə müdiri, 1965-1967-ci illərdə "Azərnəşr"də böyük redaktor, 1967-1968-ci



illərdə "Gənclik" nəşriyyatında Bədii ədəbiyyat redaksiyasının müdiri, 1980-1982-ci illərdə Mədəniyyət Nazirliyinin Mədəni-maarif idarəsində redaksiya kollegiyasının üzvü, ömrünün sonunadək Aşıqlar Birliyinin sədri vəzifələrində çalışıb.

Ədəbi fəaliyyətə İkinci Dünya müharibəsi illərində başlayan şairin librettosu əsasında hazırlanan "Azad" tamaşası 1957-ci ildə Opera və Balet Teatrında, "Yolda" poeması əsasında yazdığı eyniadlı pyesi 1974-cü ildə Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulub. 1971-ci ildə "Dağ kəndi" poemasına görə "Qızıl oraq" mükafatına layiq görülən şairin əsərləri keçmiş SSRİ və bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə olunub. 1976-cı ildə Sarayevo Beynəlxalq Poeziya Günlərinin, 1979-cu ildə Liviyada "SSRİ Günləri"nin iştirakçısı olub.

Həmişə sevilən və xatırlanan Hüseyn Arif xalqımızın ulu keçmişini, yaşadığı dövrü əks etdirən bir-birindən dəyərli şeir və poemalar yazıb. O, təbiət mövzusunda yazdığı əsərləri ilə oxucunu ana təbiəti yaxından duymağa, göz bəbəyi kimi qorumağa, doğma torpağın qədrini bilməyə səsləyib. Həmişə xalqın içində olan şair Vətənə məhəbbəti, mənəvi-əxlaqi zənginlikləri təbiət gözəllikləri ilə vəhdətdə tərənnüm edib.

Şairin yeganə oğul övladı olan Arifin ölümü onun həyatı ilə bərabər, yaradıcılığını da kədər hisslərinə bürüyüb. 21 yaşlı oğlu avtomobil qəzasında həlak olandan sonra Hüseyn Hüseynzadə Hüseyn Arif imzasıyla yazmağa başlayıb. Başına gələn faciədə özünü günahkar bilən şair ovçuluq etdiyi zamanlarda ovladığı heyvanlar haqda ürək ağrısı ilə yazıb və şeiri bu misra ilə tamamlayıb: "Bu qan səni tutasıydı, tutdu da".

Hüseyn Arifin sözləri, fikirləri, deyimləri el arasında atalar sözü, zərb-məsəl, hikmət boğçası kimi yayılıb. Onun elə beytləri, elə misra və bəndləri var ki, hər biri böyük əsərlərə sığan məna ifadə edir. "Torpaqda anasız qalmasın deyə, torpağın qoynuna köçür insanlar". "Bir gün bu dünyadan köçəsi olsam, Tək onda demərəm sən mənimlə get". "Qoşqarı çiynində gətirər ellər, Ona dərman ücün qar gərək olsa" və bu kimi onlarca, yüzlərlə misra fikir süzgəcindən keçərək, bəşəriləşərək insanların düşüncələrinə, qəlblərinə və ürəklərinə hopub.

Şeirləri və poemaları ilə yanaşı, Hüseyn Arif həm də elmi axtarışlarla məşğul olan böyük sənət xiridarı idi. O, aşıq Alı və Dilqəm sorağıyla hec kəsin demədiklərini tapıb, qələmə alıb, xalqın sərvətinə çevirib. Azərbaycan Aşıqlar Birliyinin ilk yaradıcısı və rəhbəri kimi də nə qədər yaddan çıxmış saz-söz ustalarının izinə düşüb, onların yaradıcılığını xalqa tanıtdırıb.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*



## Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri keçirilir

**Azərbaycan ilə özbək xalqları arasında əlaqələrin qədim və zəngin tarixi var. Ümumtürk kimliyi, ortaq mədəni dəyərlər, əsrlərdir davam edən ədəbiyyat və sənət mübadiləsi xalqlarımızı bir-birinə daha da yaxınlaşdırıb. Bu gün iki ölkə arasında siyasi münasibətlər dövlət başçılarımızın müdrik siyasəti və şəxsi dostluqları sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.**

Ali səviyyəli qarşılıqlı səfərlər, beynəlxalq layihələrdə iştirak, bədii kollektivlərin qastrolları dərin mədəni əməkdaşlığın göstəricisidir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə iyunun 10-dan 14-dək Özbəkistanın paytaxtı Daşkənddə keçirilən Azərbaycan Mədəniyyəti Günləri ölkələrimiz arasında mədəni əlaqələrin inkişafında yeni səhifədir.

Mədəniyyət günlərinin proqramına uyğun olaraq, iyunun 11-də Özbəkistan Yazıçılar İttifaqında "Məhəmməd Füzuli və Əlişir Nəvai: ortaq ədəbi-mənəvi dəyərlərimiz" mövzusunda konfrans keçirilib. İyunun 12-də Özbəkistan Təsviri İncəsənət Qalereyasında "Sənət incilərində yaşayan Azərbaycan milli irsi" adlı sərgi təşkil olunacaq. Həmçinin Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutunda Azərbaycan Dövlət "Yuğ" Teatrının "Mənəm, mən" tamaşası nümayiş etdiriləcək.

Həmin gün özbək sənətsevərlər dahi Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operettasının tamaşasını izləyəcəklər. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı bu dünyaşöhrətli əsəri Əlişir Nəvai adına Dövlət Akademik Teatrında təqdim edəcək. İyunun 13-də Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli tarixi romanlar müəllifi Məmməd Səid Ordubadinin "Qılınc və qələm" kitabının təqdimatı keçiriləcək.

Azərbaycan Mədəniyyəti Günlərinin tədbir və təqdimatları ədəbi-mədəni zənginliklərimizə həmişə maraq göstərən qardaş özbək xalqının yaddaşında bu dəfə də silinməz iz qoyacaq. Qeyd edək ki, ölkəmizin Özbəkistanda mədəniyyət günləri sonuncu dəfə 2022-ci ildə gerçəkləşib. Dost ölkə isə 2023-cü ildə Bakıda mədəni-mənəvi zənginliklərini nümayiş etdirib.

**Dəyərlərimiz**

## Tolerant kənd

### İvanovkada malakanlar, azərbaycanlılar və ləzgilər bir ailə kimi yaşayırlar

**Onlar lap başlanğıcda inanclarına görə təqib-təzyiq, Rusiyadakı əzəli yurdlarından sürgün, sonra tez-tez köçmək-köçürülmək, normal həyat şəraitli məkan axtarışları məcburiyyəti ilə üzləşdiklərindən ötən əsrin 90-cı illərinin çətinliklərini də taleyin qisməti, ilahi yazı kimi qəbul etmişdilər.**

"Qırmızı imperiya"nın süqutu və Azərbaycanın müstəqillik yoluna qədəm qoyması İsmayıllı rayonundakı İvanovka kəndinin, onun sakinlərinin və kolxozun tarixində gözlənilməz dönüş nöqtəsinə çevrildi. Çox narahat, mürəkkəb dövr idi. Belə bir vəziyyətdə yenidən deportasiya olunduqları ölkəyə qayıtmaq qərarına gəldilər. Yaşayış, əkin-biçin, heyvandarlıq üçün münasib yer axtarışına çıxdılar, şimaldakı qonşumuza elçilər göndərildi. Rostov vilayətində, Krasnodar diyarında, Stavropolda yer tapılmadı, Tambov, Voronej və Saratovda şərtlər münasib deyildi və nəhayət, Belqorod vilayəti barədə düşünməyə başladılar. Elə bu zaman hakimiyyətdəkilərin səriştəsizliyindən bezən xalq ayağa qalxaraq dünyaşöhrətli siyasətçi, dövlət xadimi Heydər Əliyevdən kömək istədi, Ulu Öndəri Naxçıvandan Bakıya dəvət etdi. Deməli, Azərbaycan parçalanmayacaq, xaosa son qoyulacaq, insanların sosial rifahı düzələcəkdi. Təbii ki, malakanlar da 150 ildən çox sığındıqları mehriban,




qonaqpərvər, tolerant mühitdən didərgin düşməyəcəkdilər. Beləcə, İvanovka adlı canlı sivilizasiya tarixən multikultural dəyərlərə böyük önəm verən Azərbaycanda qaldı.

Onların regiona gəlişi isə 1832-ci ilə təsadüf edir. Tarixi mənbələrdə qeyd olunur ki, malakanlar pravoslav kilsəsinə qarşı çıxdıqları üçün 26 kişi və 30 qadından ibarət dəstə halında Cənubi Qafqaza köçürülüblər. Ölkəmizdə malakanlar Bakı, Sumqayıt, Quba, Gədəbəy, Masallı, Şamaxı və İsmayıllıda yaşayırlar. Həmin rayonlardakı İvanovka, Saratovka, Slavyanka, Kalinovka malakan kəndləridir.

İsmayıllı malakanları əvvəl Qəbələ tərəfdəki "Topçu" kəndində "Ax-ox" çayı sahilində yaşayırlarmış. Amma Rusiyanın şaxtalı iqlimindən sonra rütubətli mühitə uyğunlaşa bilmədiklərindən 1847-ci ildə bir qədər yüksək, rütubətin olmadığı, qışın soyuq keçdiyi yerə köçməyi qərara alırlar və nəhayət, indi yaşadıqları məntəqə salınır.

İvanovka Acınohur silsiləsində, dəniz səviyyəsindən 500-800 metr yüksəklikdə Göyçay və Dəvəbatan çayları arasındakı vadidə yerləşir. İsmayıllı rayon mərkəzindən 14 kilometrlikdəki kəndin ərazisi 8 min hektardan çoxdur. Əhali özünün bütün adət-ənənələrini, folklorunu və məişətini qoruyub saxlayıb. Kəndin adına gəldikdə, bu, malakanların Azərbaycana köçürülməsi kampaniyasına başçılıq etmiş Qriqori Nikiforoviç İvanovla bağlıdır. Qədimdə isə bu ərazi Həftəran adlanıb.

1936-cı ildə İvanovkada kolxoz yaradılıb. Kəndin yüksəliş dövrü 1953-cü ilin oktyabrında kolxoza sədr seçilən 27 yaşlı Nikolay Vasilyeviç Nikitindən başlayır. O, təsərrüfatı ən qabaqcıl mövqelərə çıxarıb varlı kolxoza çevirib. Nikolay Nikitin 1994-cü ildə dünyasını dəyişib, kolxoz isə bu günəcən yaşayır və onun adını daşıyır.

Ümummilli Lider sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə dəfələrlə həmin kəndə səfər etmiş, kolxoz sədri, Sosialist Əməyi Qəhrəmanı Nikolay Nikitinlə görüşmüş, orada yaşayan malakanların arzularına, problemlərinə diqqət və qayğı ilə yanaşmışdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da malakanlara münasibət dəyişməmişdir. Hətta bütün Azərbaycanda kolxozlar ləğv olunsa da, kənd camaatının istəyini nəzərə alan Heydər Əliyev İvanovkada kolxozun saxlanılması ilə bağlı göstəriş vermişdir.

Prezident İlham Əliyev də İvanovka kəndində olmuş və malakanların problemləri ilə maraqlanmışdır. 2004-cü ilin yayında - İmperator I Aleksandrın xristian malakanlara etiqad azadlığı verilməsi haqqında fərmanının 200 illiyi bayram edilərkən Prezident İlham Əliyev respublikanın malakan kəndlərinin bir qrup ağsaqqalı ilə görüşmüşdür. Dövlətimizin başçısı ağır günlərdə respublikanı tərk etmədiklərinə görə onlara təşəkkürünü bildirmişdir. Onu da qeyd edək ki, erməni işğalçılarına qarşı döyüşən Vətən övladları arasında ivanovkalılar da olmuşlar. Çünki malakanlar XVIII əsrin birinci rübündə Azərbaycana gələndə necə isti münasibət, duz-çörək və qayğı ilə qarşılanmışdılarsa, həmin mehribanlıq, qonaqpərvərlik azalmamış, əksinə, artmışdır. Bu gün isə İvanovka əsl tolerant kənddir. İndi burada malakanlarla yanaşı, ləzgilər və azərbaycanlılar da bir ailə kimi yaşayırlar.

*Qurban MƏMMƏDOV*



## "Məlikməmməd" Tbilisidə mükafat aldı

**Azərbaycan Dövlət Kukla Teatrının kollektivi Gürcüstan Respublikasında səfərdə olub. Teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadənin rəhbərlik etdiyi qrup Tbilisidə keçirilən Uşaq və Gənclər Beynəlxalq Teatr Festivalında iştirak edib.**

Kuklaçılarımız teatr bayramında "Məlikməmməd" (Azərbaycan xalq nağılı əsasında) tamaşasını nümayiş etdirərək münsiflər heyətinin rəğbətini qazanıblar. Onlar 10-a yaxın ölkədən kukla teatrı kollektivinin təmsil olunduğu festivalda "Ən yaxşı səhnə həlli" və "Ən gözəl kukla" nominasiyalarında mükafata layiq görülüblər.

Məlumat üçün bildirək ki, bu səfər Azərbaycan Dövlət Kukla Teatrı ilə Gürcüstan Dövlət Kukla Teatrları Birliyi arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində reallaşıb. 2022-ci ildə imzalanmış sənədə əsasən, iki ölkənin nəinki Kukla teatrı, ümumən teatrları müxtəlif istiqamətlərdə davamlı əməkdaşlıq edəcək və müştərək layihələrə qatılacaqlar. Memorandumda tamaşaların hazırlanması, təcrübə mübadiləsinin tətbiqi, ustad dərslərinin təşkili, eləcə də spesifik istiqamətlərdə kurs və qısamüddətli təlimlərin keçirilməsi də nəzərdə tutulub. Əsas məqsəd tərəflərin qarşılıqlı əməkdaşlığı yolu ilə müxtəlif yaş qrupları üzrə kukla ifaçılıq sənətini daha da təkmilləşdirmək və dünya miqyasında sistemli təbliğinə nail olmaqdır.

Teatr qrupu "Məlikməmməd" tamaşasını həm də azərbaycanlıların kompakt yaşadıqları Marneulidə də nümayiş etdirib.

*Q.MƏMMƏDOV*

# Özbəkistan Yazıçılar İttifaqında "Məhəmməd Füzuli və Əlişir Nəvai: ortaq ədəbi-mənəvi dəyərlərimiz" adlı konfrans keçirilib

**Daşkənddə Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində iyunun 11-də Özbəkistan Yazıçılar İttifaqında "Məhəmməd Füzuli və Əlişir Nəvai: ortaq ədəbi-mənəvi dəyərlərimiz" adlı konfrans təşkil olunub.**

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə həmçinin böyük Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi münasibətilə söz ustadının əsərlərinin özbək dilində iki cilddə külliyyatının təqdimatı keçirilib. İkicildlik külliyyat Daşkənddə fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi əsasında işıq üzü görüb.

Konfransda Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov, Özbəkistan Yazıçılar İttifaqının sədri Xalq şairi Siracəddin Səid və iki ölkənin tanınmış ədəbiyyat və mədəniyyət xadimləri iştirak ediblər.

Özbəkistan Yazıçılar İttifaqının sədri Siracəddin Səid ölkəsində keçirilən Azərbaycan Mədəniyyəti Günlərinin, eyni zamanda ədəbi əlaqələrin inkişafına böyük töhfə olduğunu deyib.

Bildirilib ki, böyük Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığından bəhrələnən Əlişir Nəvai ümumtürk ədəbi fikrinin inkişafına təsir göstərib, xalqlarımız arasında ədəbi-mədəni körpü rolunu oynayıb.

S.Səid 100 cildlik "Türk ədəbiyyatının inciləri" antologiyasının ərsəyə gəlməsinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə minnətdarlığını bildirib.

Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov çıxış edərək Azərbaycan nümayəndə heyətini salamlayıb. Azərbaycan ilə Özbəkistan arasında ədəbi-mədəni əlaqələrin inkişafından məmnunluğunu bildirən nazir deyib ki, hər həftə ya Özbəkistanda, ya da Azərbaycanda iki qardaş xalqın ədəbiyyatı, mədəniyyəti və elmi ilə bağlı müxtəlif tədbirlər keçirilir. Hər bir tədbir xalqlarımızı daha da yaxınlaşdırır. O, ötən il Bakıda Özbəkistan Mədəniyyəti Günlərinin yüksək səviyyədə keçirildiyini deyib, Azərbaycan Mədəniyyəti Günlərinin də uğurla gerçəkləşəcəyini bildirib.

Azərbaycanın mədəniyyət naziri Adil Kərimli çıxışında konfrans iştirakçılarını salamlayaraq bildirib ki, mədəniyyət günləri tədbirlərinin ədəbiyyata dair konfransla başlanması təsadüfi deyil. Çünki Azərbaycan və Özbəkistan arasında mədəni münasibətlərin əsasında həm də Orta əsrlərdən üzü




bəri davam edən ədəbi əlaqələr dayanır.

İki ölkə arasında mədəni əlaqələrin inkişafında dövlət başçılarımızın dostluğunun və qarşılıqlı etimada əsaslanan uğurlu siyasətinin mühüm rol oynadığını deyən nazir bu sahədə siyasətin davamlı olacağına əminliyini bildirib. Qeyd olunub ki, Daşkənddə fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi də ölkələrimiz arasında ədəbi-mədəni əlaqələrin inkişafında mühüm rol oynayır.

Məhəmməd Füzulinin külliyyatının özbək dilində nəşrini yüksək qiymətləndirən Adil Kərimli ikicildliyin dahi şairin Özbəkistanda daha yaxından tanınmasına vəsilə olacağını deyib.

Nazir 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Azərbaycan və Özbəkistan gənc yazarlarının iştirakı ilə "Məclisi-fəramuşan" ədəbi məclisinin uzun illərdən sonra bərpa olunmasını ölkələrimizin ədəbi əlaqələrinə yeni mühüm töhfə kimi qiymətləndirib.

Daha sonra konfransda ədəbiyyatşünas, professor Nurboy Cabbarov, Azərbaycan Milli Məclisinin deputatı akademik Nizami Cəfərov, şair, tərcüməçi Mirzo Kenjabek, Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu və AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini Ruhəngiz Cümşüdlünün məruzələri dinlənilib.

Qeyd edilib ki, Əlişir Nəvai və Məhəmməd Füzuli təkcə iki xalqın deyil, ümumtürk ədəbi-mədəni fikrinin inkişafında da müstəsna rol oynayıblar.

Sonra məruzələr ətrafında çıxışlar olub.

Tədbirdə Azərbaycan incəsənət ustalarının iştirakı ilə ədəbi-musiqili kompozisiya təqdim edilib.

# Enerji təchizatı şəbəkələrinə qoşulma ilə bağlı yeni qaydaların tətbiqinə başlanılıb

**Elektroenergetika sektorunda fəaliyyət göstərən qurumlar və istehlakçılar arasında yaranan münasibətlərin tənzimlənməsinin təmin edilməsi, enerji təchizatı şəbəkələrinə qoşulma ilə bağlı xərclərin qarşılanmasında vahid yanaşmanın təmin olunması, istehlakçı xərclərinin əvvəlcədən proqnozlaşdırılması, istehlakçıların etibarlı, keyfiyyətli, əlçatan və fasiləsiz elektrik enerjisi ilə təmin olunması, istehlakçılara keyfiyyətli xidmətin göstərilməsi, elektrik enerjisi bazarı subyektlərinin tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasının şəffaf və ayri-seçkiliyə yol verilmədən həyata keçirilmənin təmin edilməsi məsələsi ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.**





Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"nın tətbiqi ilə bu günə qədər həmin sahədə mövcud olan qaydalar arasındakı ziddiyyətli məqamların aradan qaldırılması ilə yanaşı, vahid qanunvericilik bazasının yaradılması da təmin edilmişdir.

İndiyə qədər ayrı-ayrı istehlakçı kateqoriyalarına aid tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasında fərqli yanaşma tətbiq edilir, yəni sahibkarlıq subyektlərinə aid tikinti obyektləri üçün bir "Qayda"nın, məişət abonentləri üçün bir "Qayda"nın, orta gərginlikli şəbəkədən qoşulma üçün isə başqa bir "Qayda"lara uyğun olaraq sifarişçilərə texniki şərtlər verilirdi. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişiklikliyə uyğun olaraq yeni "Qayda"larda aşağı gərginlikli (0.4 kV-luq) şəbəkələrdən qoşulma zamanı texniki şərtlərin verilməsi tikinti obyektlərinin tələbat gücü 150 kVt-dan artırılaraq 200 kVt-a çatdırılmışdır. Yeni qaydaların tətbiqi ilə məişət və sahibkarlara məxsus tikinti obyektlərinin enerji təchizatı (1 fazlı təchizat sxemi üzrə) şəbəkəsinə qoşulmasında eyni tariflər tətbiq ediləcəkdir. Bundan başqa, indiyə qədər tətbiq edilən qaydalara görə texniki şərtlərin verilməsi zamanı minimal tələbat gücü 5 kVt-dan başlayırdı. Yeni qaydalara görə isə tələbat gücü 1 kVt-dan başlaya bilər və uyğun olaraq ödəniş məbləği azalmış olur. Sahibkarların tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulması zamanı obyektin təyinatına görə tətbiq edilən fərqli ödəniş məbləğləri də aradan qaldırılmışdır. Yeni ödəmə məbləğinə əsasən, ticarət, ictimai iaşə, məişət və digər növ xidmət obyektlərində birfazlı təchizat sxemi üzrə aşağı güc qoşulmalarının (20 kVt daxil) ödəniş məbləğləri 60-70 faiz azalır.

Yeni qaydalarda enerji təchizatı şəbəkəsinə qoşulmalar zamanı texniki şərtlər verilərkən şəbəkənin gücləndirilməsi ilə əlaqədar tələblər aradan qaldırıldığı üçün sahibkarlıq subyektləri yalnız tarifə uyğun ödənişlər edəcəklər. Bununla da sahibkarların enerji təchizatı şəbəkəsinə qoşulma ilə bağlı ümumi xərclərin azalması təmin olunacaq.

Tələb olunan gücü 200 kVt-dan yuxarı olan üçfazlı aşağı gərginlikli (0,4 kV) şəbəkədən və bütün güclər üçün orta gərginlikli şəbəkədən texniki şərtlərin verilməsi zamanı sifarişçidən ancaq enerji təchizatı şəbəkəsinə fiziki qoşulmaya görə ödəniş məbləği alınacaqdır.

Layihə sənədlərinin hazırlanması və tikinti-quraşdırma işlərinin (elektrik veriliş xətlərinin çəkilməsi, avadanlıqların quraşdırılması və s.) yerinə yetirilməsi sifarişçinin seçiminə uyğun olaraq enerji təchizatı müəssisəsi və ya bu işləri görməyə lisenziyası (xüsusi icazəsi) olan qurumlar tərəfindən sifarişçinin vəsaiti hesabına aparılacaqdır. Bu da inhisarçılığın aradan qaldırılması və yeni sahibkarlıq subyektlərinin yaranmasına təkan verəcək.

Sonda bir daha qeyd edək ki, bu qaydanın qəbulu ölkədə sahibkarlığın inkişafına dəstək verməklə yanaşı, vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə***

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 122 (9577) 11 iyun 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Növbəti görüş yeri Şuşadır

Prezidentlər Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, dostluq və müttəfiqlik münasibətlərinin uğurla inkişafından məmnundurlar

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfərə gedib.
- Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Ankaranın Esenboğa Hava Limanında görüşüblər.
- Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub. Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, dostluq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıblar.
- Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan birgə nahar ediblər.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri iyunun 10-da başa çatıb.

İlham Əliyevin qurduğu yeni Xocalı

Münasibətlərdə yeni mərhələ

Azərbaycanla Misir arasında imzalanmış sənədlər qarşılıqlı əməkdaşlığı daha da genişləndirəcək

Avropalılar millətçilərə səs verdilər

Seçkilərin nəticələri qitədəki dərin böhranı sübut edir

Xəstə çox şey dilər...

Fransa Makrona etimad göstərmədi

Müxalifət hakim partiyadan iki dəfə çox səs topladı

azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 13.06.24-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Buzlaqların əriməsi böyük problemləri qaçılmaz edir

**Son illər ən çox müzakirə olunan qlobal problemlərdən biri iqlim dəyişikliyidir. Okeanlarda buzlaqların əriməsi, su ehtiyatlarının azalması, quraqlıq və havanın temperaturunun getdikcə artması bütün dünyanı narahat edən məsələlərdəndir.**



Qlobal istiləşmə atmosferin və okeanların isinməsinə səbəb olur. Temperaturun artması buzlaqların əvvəlkindən daha sürətli əriməsi, nəticədə dəniz və okean sularının səviyyəsinin yüksəlməsi ilə nəticələnir. Yer kürəsinin təxminən 10 faizini əhatə edən buzlaqlarda həm də şirin su ehtiyatlarının 70 faizə qədəri cəmləşib.

Okean axınları nəticəsində buzlaqların altına daxil olan isti su buz parçalarının əriməsini sürətləndirir. Məsələn, Antarktidada aparılan tədqiqatlar nəticəsində okeandakı "Thwaites" buzlağının isti dəniz suyu səbəbindən intensiv şəkildə əridiyi məlum olub. Mütəxəssislər bunun davam edəcəyi təqdirdə 2100-cü ilə qədər dəniz səviyyəsinin 65 santimetr yüksələcəyini bildirirlər. Antarktidanın şərqində yerləşən bu buzlağı yaradacağı təhlükələrə görə "Qiyamət buzlağı" adlandırırlar. 192 min kvadratkilometr səth sahəsi ilə Antarktidanın ən böyük buzlaqlarından biri olan və qlobal dəniz səviyyəsinin yüksəlməsində ciddi məsuliyyət daşıyan "Thwaites" iqlim dəyişikliyinin təsirləri sürətləndikcə hər il təxminən 50 milyard ton buz itirir.

Atmosfer hadisəsi olan El Ninonun meydana gəldiyi 2023-cü ilin mart və iyun ayları arasında alınan peyk məlumatlarının da istifadə edildiyi araşdırmada elm adamları qabarma-çəkilmə nəticəsində isti dəniz suyunun buzlağın 6 kilometr içinə keçdiyini müəyyən ediblər. Təzyiqli dəniz suyunun hər il buzlağı 20 metr əridəcəyi vurğulanır. Bu isə ildə 60 milyon olimpiya hovuzuna bərabərdir. Hesablamalara görə, buzlağın tam əriməsi qlobal dəniz səviyyəsinin 3,5 metrə qədər qalxmasına səbəb olacaq. Bu zaman qonşu buzlaqların da hərəkətə keçmə təhlükəsi yaranacaq.

Tədqiqatçılar bildirirlər ki, buzlağın əriməsi okeanlarda və sahilyanı ərazilərdə bir çox bitki və heyvan növünün yox olmasına səbəb olacaq. Eyni zamanda bu, sel, daşqın, şirin su ehtiyatları problemi, kənd təsərrüfatı istehsalının azalması və iqtisadi itkilərə səbəb olacaq. Dəniz səviyyəsinin qalxması bütün sahilyanı və ada ölkələrini təhdid etsə də, bəzi ölkələr digərlərinə nisbətən daha çox risk altındadır. Maldiv, Tuvalu, Marşal adaları, Kiribati, Solomon adaları, Banqladeş, Hollandiya, Vyetnam, İndoneziya və Yaponiya kimi əhalinin sahil zolağında sıx məskunlaşdığı ölkələrdə dəniz səviyyəsinin qalxması milyonlarla insana təsir edəcək və böyük maddi ziyana səbəb olacaq.

Tədqiqatçılar bu ölkələrin su altında qalma riskini azaltmaq üçün təcili addımların atılmasının vacibliyini vurğulayır, bir sıra təkliflər irəli sürürlər. Bu təkliflər arasında dəniz divarlarının qurulması, sahil zolağının yüksəldilməsi, şirin su ehtiyatlarının qorunması, kənd təsərrüfatı istehsalında duza davamlı məhsulların yetişdirilməsi və miqrasiya planlarının hazırlanması kimi tədbirlər var. Belə bir vəziyyətdə mövcud su ehtiyatlarından səmərəli istifadə və su mənbələrinin çirklənmədən etibarlı mühafizəsi ciddi əhəmiyyət kəsb edir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi iş yoldaşları, vəkil Emin Zeynalova və ailə üzvlərinə əzizləri

**ŞƏFAQƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı şəhəri 6 saylı Vəkil Bürosunun kollektivi vəkil Sehran Əkbərova qardaşı

**ƏDALƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4405
Sifariş 1281

Qiyməti 60 qəpik